Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

18 İYUN 2020-ci il

№ 96 (4227)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur


# PANDEMİYA İLƏ AZƏRBAYCAN MÜBARİZƏ MODELİNDƏ YENİ ELEMENT - «BALANSLI YANAŞMA...»

■ səh. 5 ■

Azərbaycan hakimiyyəti kibertəhlükəsizlik yönümündə mühüm layihələrə başlayır - Prezident düşündürücü anonslar verdi...

■ səh. 4 ■

Prezident Əliyevin tək iki Qərb şirkəti ilə videogörüşündən çıxan böyük nəticə - Azərbaycan rəqəmsallaşma üzrə dünya öncüllüyünü hədəfləyib

■ səh. 4 ■

Prezident "Microsoft" şirkətinin rəhbərliyilə görüşdə nəyi nəzərdə tutdu - İnnovasiya Mərkəzi...

■ səh. 3 ■

Avroparlament şokunun ardından İran və Rusiya da Ermənistandan üz döndərir

■ səh. 9 ■

Azərbaycanın azalan neft gəlirlərini artan qaz pulları kompensasiya etməyə başladı

■ səh. 12 ■

Sənaye inqilabı üzrə regional mərkəz statusu Azərbaycana fərqli nə verəcək...

■ səh. 11 ■

Çarukyan məsələsindən sonra Paşinyan ən yaxın adamlarından şübhələnməyə başlayıb

■ səh. 7 ■

Banklar yenə etimadı doğrultmur - problemli kreditlərdə cəmi 18 faiz azalma, o da dövlətin müdaxiləsi ilə...

■ səh. 13 ■



## Prezident Azərbaycanın yeni strategiyasını bəyan etdi - rəqəmsal transformasiya üzrə hökumət strategiyası...

■ səh. 3 ■

Pandemiya dövrü üçün Azərbaycan turizminə əlavə böyük investisiyalar beynəlxalq müzakirə müstəvisində...

■ səh. 5 ■



Azərbaycan distant təhsil üzrə ən pis ssenarilərə indidən hazırlıq görməyə başlayıb...

■ səh. 15 ■





Beynəlxalq hüququn gücləndirilməsinə Azərbaycanın da ehtiyacı var - Rusiya-İran bəyannaməsində iştirak perspektivləri...

■ səh. 7 ■

Qarabağ məsələsində Ermənistan dalana girəndə, bu ölkədə daxili siyasi böhran yaradılır - Parlament deputatı həbs etdirir, jurnalistlər döydürülür...

■ səh. 8 ■

Koronavirusa yoluxma səviyyəsində Yasamalın davamlı və ziyanlı «liderliyi» - səbəblər...

■ səh. 11 ■




Ermənipərəst «Human Rights Watch» Azərbaycana qarşı yeni təşkilatlar çıxarır - İnsan Haqları Evi Fondu, İnsan Haqları Evləri Şəbəkəsi...

■ səh. 8 ■

### Prezident "dar günün dostu" adlandırıldı... Zəlzələ zərərdidəsi İsmayıllının Hacıhətəmli kəndindən gələn məktub....

**"Son illərdə ölkəmizdə baş verən hadisələr göstərdi ki, Siz hər bir vətəndaşın dayağı, dar günün dostusunuz. Bizim ailə də bunu öz həyatında gördü. Ötən il Dağlıq Şirvan zonasında baş vermiş zəlzələ nəticəsində evimiz qəzalı vəziyyətə düşmüşdü.**

Arzu edirəm, o günləri Allah bir də bizə göstərməsin. Öz doğma ocağını dağınıq görmək çox ağır taledir. Belə bir vaxtda biz Sizi yanımızda gördük, böyük təsəlli və sonda nicat tapdıq. Ailəm üçün yeni ev tikilib… Bizi evsiz-eşiksiz qoymadığınız üçün Sizə ailəmin adından minnətdarlığımı bildirirəm. Xudavəndi-aləm ocağınızı gur eləsin, həyatınız daim firavan olsun".

Bu fikirlər İsmayıllı rayonunun Hacıhətəmli kənd sakini Seyidov Elməddin Seyfəddin oğlunun Prezident İlham Əliyevə yazdığı məktubda əks olunub.

*Baki-xeber.com*

### Ağcabədinin Rəncbərlər sakinləri Prezidentin bölgə səfərlərinə necə qiymət verdilər...

**Ağcabədi rayonunun Rəncbərlər kəndindən Məmmədov Eldəniz Ərşad oğlu da Prezident İlham Əliyevə müraciət edib.**



"Tərtər, Ağdam, Ağcabədi rayonlarına səfəriniz bir daha göstərdi ki, Siz cəbhə bölgəsinə həssaslıqla yanaşır, həmin rayonların sosial-iqtisadi inkişafına xüsusi diqqət və qayğı göstərirsiniz.

Sizin Ağcabədiyə son səfəriniz bir kənd sakini olaraq mənə və bütün ağcabədililərə böyük ruh yüksəkliyi gətirib. Səfər çərçivəsində Ağcabədidə bir sıra obyektlərin, o cümlədən, kəndimizin ərazisində yerləşən dənli bitki toxumlarının emalı zavodunun açılışında iştirak etməyiniz gələcəkdə biz fermerlərin yüksək reproduksiyalı toxumlarla təmin olunması və yüksək məhsuldarlıq əldə etməsi üçün böyük təkan olacaq.

Bu şəraiti bizə yaratdığınıza görə kəndimizin fermerləri adından Sizə dərindən təşəkkür edir, cansağlığı, uzun ömür diləyirəm. Biz hiss edirik ki, Azərbaycan kəndlisi torpaq sahibidir, arxasında isə onu düşünən dövlət başçısı var. Allah Sizi qorusun" - deyə E.Məmmədov qeyd edir.

*Baki-xeber.com*

# Prezident İlham Əliyevlə Dünya Bankının yeni vitse-prezidenti və digər nümayəndələri arasında videokonfrans keçirilib



**Dünya Bankının təşəbbüsü ilə Prezident İlham Əliyevlə bankın Avropa və Mərkəzi Asiya regionu üzrə yeni təyin olunan vitse-prezidenti Anna Byerde, Cənubi Qafqaz üzrə regional direktoru Sebastian Molineus və bankın digər nümayəndələri arasında videokonfrans keçirilib.**

Videokonfransda Azərbaycan tərəfdən Prezidentin köməkçisi Natiq Əmirov və Mərkəzi Bankın sədri Elman Rüstəmov iştirak edib.

# Azərbaycanda koronavirusa 329 yeni yoluxma... 127 nəfər sağaldı, 7 nəfər vəfat etdi

**Azərbaycanda 329 yeni koronavirus (COVID-19) infeksiyasına yoluxma faktı qeydə alınıb, 127 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.**



Nazirlər Kabineti yanında Operativ Qərargahdan baki-xeber.com-a bildirilib ki, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 7 nəfər vəfat edib. Hazırkı dövrədək ölkəmizdə 10 991 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 6 075 nəfər müalicə olunaraq sağalıb, 133 nəfər vəfat edib, aktiv xəstə sayı 4 783 nəfərdir.

Dünən 5 700 koronavirus testi aparılıb. Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 397 min 399 test aparılıb.

# Baş Prokurorluq: "KİVDF-də baş verən qanunsuzluqlarla bağlı cinayət işi başlanıb"

**Ölkəmizdə uğurla həyata keçirilən davamlı iqtisadi inkişaf siyasətinin mühüm şərtlərindən biri kimi şəffaflığın və maliyyə intizamının təmin edilməsi, aparılan islahatlarla korrupsiyaya qarşı mübarizə tədbirlərinin dəstəklənməsi daim diqqət mərkəzində saxlanır.**



Prokurorluq orqanları tərəfindən aidiyyəti dövlət qurumları ilə birgə büdcə və digər maliyyə vəsaitlərinin səmərəli və təyinatı üzrə istifadə olunması sahəsində dövlət nəzarətinin səmərəliliyinin artırılması və bu sahədə korrupsiya hüquqpozmalarına qarşı mübarizənin gücləndirilməsi istiqamətində zəruri tədbirlərin görülməsi davam etdirilir.

Respublika Baş Prokurorluğunun Mətbuat xidmətindən "Bakı-Xəbər"ə verilən məlumata görə, həmin tədbirlərin davamı kimi, Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən yol verilən qanunsuzluqlar barədə Azərbaycan Respublikasının Hesablama Palatasından daxil olmuş material Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırılıb.

Araşdırma zamanı Fondun vəzifəli şəxsləri tərəfindən dövlət satınalmaları haqqında qanunvericiliyin tələblərinə əməl edilməməsi, vəsaitlərin təyinatı üzrə istifadə olunmaması, tikinti norma və qaydalarının pozulması, kütləvi informasiya vasitələrinə yardımların qanunsuz verilməsinə əsaslı şübhələr müəyyən edilib.

Belə ki, daxil olmuş materiala əsasən, Fondun "Xərclər smetası"nın icrasına, KİV-lərin fəaliyyətinin təkmilləşdirilməsini nəzərdə tutan və inkişafını dəstəkləyən proqram, layihə və digər tədbirlərin maliyyələşdirilməsinə, habelə Fondun saxlanması xərcləri üzrə inzibati binanın müvafiq satınalma keçirilmədən icarəyə götürülməsi və nəqliyyat vasitələrinin təmiri və yanacaqla təmin edilməsinə, KİV-lərə maliyyə yardımının və gündəlik ictimai-siyasi qəzetlərə birdəfəlik maliyyə yardımının ayrılmasına, tikinti norma və qaydalarına əməl edilməməsi nəticəsində iş həcmlərinin artırılması, obyektin ehtimal dəyərinin şişirdilməsi və işlərin görülməməsinə görə külli miqdarda artıq vəsait qanunsuz olaraq xərclənib.

Qeyd olunan qanunsuz əməllərə görə Cinayət Məcəlləsinin 179.4 (külli miqdarda mənimsəmə), 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə), 308-1.2 (külli miqdarda dövlət büdcəsi vəsaitini təyinatı üzrə istifadə etməmə) və 308-2.4-cü (dövlət satınalmalarını qanunsuz keçirmə) maddələri ilə cinayət işi başlanıb. Cinayət işi üzrə qanunsuz halların tam, hərtərəfli yoxlanılmaqla təqsirli şəxslərin dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb edilmələri istiqamətində təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Baş Prokurorluq eyni zamanda bildirir ki, jurnalistlər üçün dövlət vəsaiti hesabına inşa edilmiş iki yaşayış binasından mənzilə ehtiyacı olan jurnalistlərə ev verilməsinə maneçilik törədilməsi, həmin evlərin paylanması qayda və şərtlərinin kobud şəkildə pozulması ilə bağlı daxil olmuş şikayətlər üzrə də hazırda Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırmalar aparılır.

Baş Prokurorluğun Mətbuat xidməti tərəfindən istintaqın gedişatı barədə ictimaiyyətə ətraflı məlumat veriləcək.

Baş Prokurorluq bu qəbildən qanunazidd hallarla üzləşən jurnalistlərə, eləcə də vətəndaşlara müraciət edərək "961" nömrəli "Çağrı Mərkəzi" və ya Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin "161" nömrəli "Qaynar xətt" əlaqə mərkəzinə məlumat vermələrini xahiş edir.

# Prezident Azərbaycanın yeni strategiyasını bəyan etdi - rəqəmsal transformasiya üzrə hökumət strategiyası...

**"Hazırda biz rəqəmsal transformasiya üzrə hökumət strategiyası üzərində işləyirik". Bunu Prezident İlham Əliyev "Microsoft" şirkətinin təşəbbüsü ilə şirkətin vitse-prezidenti Filip Roq, Mərkəzi və Şərqi Avropa bölgəsinin korporativ əlaqələr və hüquqi məsələlər üzrə rəhbəri Nanna-Luize Linde və "Microsoft" şirkətinin digər nümayəndələri ilə keçirilən videokonfrans zamanı deyib.**

"Ümidvarıq ki, bu məsələdə "Microsoft"la yaxşı əməkdaşlıq edə biləcəyik. Bu proqram növbəti 5 il üçün planlaşdırılır. Eyni zamanda, süni intellekt üzrə strategiyanın ətraflı işlənib hazırlanması ilə bağlı məsələlər də bizim gündəliyimizdədir. Kibertəhlükəsizlik hər zaman gündəlikdədir, çünki bu, bütün ölkələrin hazırlıqlı olmalı olduğu məsələdir. İndiyədək bizdə belə böyük hallar olmayıb, lakin heç kim sığortalanmayıb. Ona görə də bu da bizim gələcəyimiz üçün prioritetlər sırasında qalır".

## *Eldəniz Səlimov: "Azərbaycan artıq sənaye inqilabı üzrə regional mərkəzə çevrilib"*



*"Bizim əsas strategiyamız karbohidrogen ehtiyatlarından asılılığı azaltmaq, innovasiyalar, yeni texnologiyalar və..."*

Millət vəkili Eldəniz Səlimov bildirdi ki, Azərbaycan daim yeniliklərə, yeni texnologiyaların tətbiqinə, onun yayılmasına, inkişafına açıq olan bir ölkədir. Bunu ötən illər ərzində keçdiyimiz yol, atılan addımlar da nümayiş etdirir: "Hazırda biz rəqəmsal transformasiya üzrə hökumət strategiyası üzərində işləyirik. Ümidvarıq ki, bu məsələdə "Microsoft"la yaxşı əməkdaşlıq edə biləcəyik. Bu proqram növbəti 5 il üçün planlaşdırılır. Eyni zamanda, süni intellekt üzrə strategiyanın ətraflı işlənib hazırlanması ilə bağlı məsələlər də bizim gündəliyimizdədir".

Həmsöhbətimiz onu da əlavə etdi ki, Azərbaycan artıq sənaye inqilabı üzrə regional mərkəzə çevrilib: "Bizim əsas strategiyamız karbohidrogen ehtiyatlarından asılılığı azaltmaq, innovasiyalar, yeni texnologiyalar və müasir idarəçilik əsasında dayanıqlı inkişafa nail olmaqdır. Buna görə düşünürəm ki, bu məsələ üzərində birgə çalışmağımız əməkdaşlığımızı gücləndirə bilər".

***Günel CƏLİLOVA***

# Prezident "Microsoft" şirkətinin rəhbərliyilə görüşdə nəyi nəzərdə tutdu - İnnovasiya Mərkəzi...

**İyunun 16-da Prezident İlham Əliyevlə "Microsoft" şirkətinin təşəbbüsü ilə şirkətin vitse-prezidenti Filip Roq, Mərkəzi və Şərqi Avropa bölgəsinin korporativ əlaqələr və hüquqi məsələlər üzrə rəhbəri Nanna-Luize Linde və "Microsoft" şirkətinin digər nümayəndələri arasında videokonfrans keçirilib.**



## *Vüqar Bayramov: "Azərbaycan innovasiya və eyni zamanda, informasiya texnologiyaları baxımından regionun aparıcı ölkələrindəndir"*

Videogörüş zamanı dövlət başçısı bildirib ki, Azərbaycan artıq sənaye inqilabı üzrə regional mərkəzə çevrilir. O, Davos İqtisadi Forumu zamanı cənab Borge Brende ilə Davosun Dördüncü Sənaye İnqilabı üzrə Regional Mərkəzinin Bakıda yaradılması ilə bağlı sənədi imzaladıqlarını deyib: "Beləliklə, bu mərkəz nəinki təkcə Azərbaycanı, region ölkələrini də əhatə edəcək. Buna görə düşünürəm ki, bizim üçün daha da irəliləmək və sizinlə innovasiya mərkəzi üzərində çalışmaq təbii olardı. Bizim əsas strategiyamız, sizin də bildiyiniz kimi, karbohidrogen ehtiyatlarından asılılığı azaltmaq və innovasiyalar, yeni texnologiyalar və müasir idarəçilik əsasında dayanıqlı inkişafa nail olmaqdır. Buna görə düşünürəm ki, bu məsələ üzərində birgə çalışmağımız əməkdaşlığımızı gücləndirə bilər".

İnnovasiya mərkəzinin yaradılmasının əhəmiyyəti haqqında danışan millət vəkili Vüqar Bayramov qeyd etdi ki, bu görüş bir daha təsdiq edir ki, Azərbaycan innovasiya və eyni zamanda, informasiya texnologiyaları baxımından regionun aparıcı ölkələrindəndir. Xüsusilə də 4-cü Sənaye İnqilabı ilə bağlı regional fəaliyyətlərdə Azərbaycanın öndə olması, Davos İqtisadi Forumunun 4-cü Sənaye İnqilabı üzrə Regional Mərkəzinin Azərbaycanda yaradılması ilə bağlı razılığın əldə edilməsi onu sübut edir ki, Azərbaycan innovasiyanı dəstəkləyən və innovativ, eləcə də texnoloji inkişafa töhfə verən ölkələrdən biridir: "Praktik olaraq, bu, innovasiya sahəsində Azərbaycanın regionun aparıcı ölkələrindən biri olması anlamına gəlir. Bu baxımdan, sözügedən videokonfrans bir daha təsdiq edir ki, postpandemiya dövründə Azərbaycanda həyata keçirilən islahatlar, innovativ və eyni zamanda, texnoloji yeniliklərin, sahibkarların və bütövlükdə, iqtisadiyyatın eyni istiqamətdə daha yaxından dəstəklənməsinə imkan verəcək.

*"...sahibkarların və bütövlükdə, iqtisadiyyatın eyni istiqamətdə daha yaxından dəstəklənməsinə imkan verəcək"*

**Bu da postpandemiya dövründə Azərbaycan iqtisadiyyatında innovativ dəyərin çəkisinin artmasına və bütövlükdə, ölkə iqtisadiyyatındakı diversifikasiya meyllərinin gücləndirilməsinə, ötən ayın yekunlarında olduğu kimi, növbəti dövrlərdə də innovasiyanı daha çox tətbiq edən sektorlardan olan neftdən kənar sahələrin iqtisadiyyatdakı drayver rolunun güclənməsinə gətirib çıxaracaq".**

***Günel CƏLİLOVA***

# Azərbaycan hakimiyyəti kibertəhlükəsizlik yönümündə mühüm layihələrə başlayır - Prezident düşündürücü anonslar verdi...

**Prezident İlham Əliyev "Microsoft" şirkətinin təşəbbüsü ilə şirkətin vitse-prezidenti Filip Roq, Mərkəzi və Şərqi Avropa bölgəsinin korporativ əlaqələr və hüquqi məsələlər üzrə rəhbəri Nanna-Luize Linde və "Microsoft" şirkətinin digər nümayəndələri arasında keçirilən videokonfrans zamanı deyib ki, hazırda biz rəqəmsal transformasiya üzrə hökumət strategiyası üzərində işləyirik:**

"...İki il bundan əvvəl Bakıda keçirdiyimiz görüşdən sonra əməkdaşlığımıza gəlincə, bildiyiniz kimi, biz razılaşma imzalamışdıq. Görüşümüzdən əvvəl mənə məlumat verildi ki, on minlərlə lisenziya verilib və bu məsələ hazırda uğurla davam etdirilir. Bizim piratçılığa qarşı birgə səylərimiz yaxşı nəticələr verir. Gələcək planlarımıza gəlincə, bəlkə də bilirsiniz ki, hazırda biz rəqəmsal transformasiya üzrə hökumət strategiyası üzərində işləyirik. Ümidvarıq ki, bu məsələdə "Microsoft"la yaxşı əməkdaşlıq edə biləcəyik. Bu proqram növbəti 5 il üçün planlaşdırılır. Eyni zamanda, süni intellekt üzrə strategiyanın ətraflı işlənib hazırlanması ilə bağlı məsələlər də bizim gündəliyimizdədir. Kibertəhlükəsizlik hər zaman gündəlikdədir, çünki bu bütün ölkələrin hazırlıqlı olmalı olduğu məsələdir. İndiyədək bizdə belə böyük hallar olmayıb, lakin heç kim sığortalanmayıb. Ona görə də bu da bizim gələcəyimiz üçün prioritetlər sırasında qalır. Əlbəttə, mən icra olunmuş layihələrin siyahısına baxdım. Aramızdakı əməkdaşlıq çox təsirləndiricidir və əminəm ki, bu, qarşıdakı illərdə tərəfdaşlığımızı gücləndirəcək".

Göründüyü kimi, ölkə başçısı Azərbaycanın kibertəhlükəsizliklə bağlı mühüm nailiyyətlərə imza atdığını qeyd etməklə yanaşı, gələcəkdə bu sahənin inkişafına böyük önəm veriləcəyini bildirdi. Azərbaycanın bu sahədə əldə etdiyi uğurları və bundan sonra görülməsi nəzərdə tutulan işləri necə dəyərləndirmək olar?

İKT üzrə ixtisaslaşmış VR360. az şirkətinin rəhbəri

Nicat Qasımlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu sahənin olduqca spesifik xüsusiyyətləri var: "Əks təsirlər adətən həmin sahənin daha çox inkişaf etdiyi, yaxud daha çox istifadəçi fonunda formalaşır. Azərbaycanda kibertəhlükəsizlik qavramı daha çox müstəqillik illərindən sonra istifadə olunmağa başlayıb. Kibercinayətlər və ona qarşı kibertəhlükəsizlik üzrə internet texnologiyaları yarandığı gündən bu günə qədər aktual olub. Kibercinayətdən heç kim sığortalanmayıb. İstər fərdi şəxslərə, istərsə də hökumətlərin informasiya sistemlərinə kiberhücumlar həyata keçirilir. Fərdi şəxslərə olunan kibercinayətkarlıq halları həmin şəxsin daha çox sosial nüfuzuna bağlı olur. Təhlükə dairəsi isə həmin şəxs və onun yaxın çevrəsi ilə məhdudlaşır. Ancaq dövlətlərin, iri bank və şirkətlərin informasiya sistemlərinə yönələn kibercinayətkarlıq halları təhlükəli nəticələrə səbəb ola bilir. Zaman-zaman Azərbaycanda da müxtəlif dövlət qurumlarına məxsus informasiya sistemləri bu cür hücumlara məruz qalıb (Ermənistan faktoru-N.Q). Ancaq o qədər də təhlükə doğuracaq hallar baş verməyib.

Xüsusilə qeyd etmək lazımdır ki, xüsusi dövlət mühafizə xidməti tərəfindən qorunan (əvvəl bu qurum nəzarət edirdi -N.Q) və birbaşa nəzarət olunan dövlətə aid informasiya sistemlərinin saxlanıldığı dövlət serverləri böyük əhəmiyyətə malikdir. Hansı ki, həmin serverlərə yerləşdirilən məlumatların sağlam olmasına və kənar müdaxilələrdən qorumaq üçün ciddi nəzarət olunur.

***Nicat Qasımlı:** "Bu cür məlumatların fərdi, yaxud xarici şirkətlərə məxsus serverlərdə saxlanması həm dövlətin kibertəhlükəsizliyinə, həm də milli təhlükəsizliyə zidd olardı"*



Müxtəlif qurumlara məxsus elektron hökumət portalları ölkəmizdə yaşayan bütün vətəndaşlara məxsus fərdi məlumatlara malikdir. Bu cür məlumatların fərdi, yaxud xarici şirkətlərə məxsus serverlərdə saxlanması həm dövlətin kibertəhlükəsizliyinə, həm də milli təhlükəsizliyə zidd olardı. Həmin hökumət portallarının nə cür işləyib-işləməməsi, istifadəçiyə nə qədər yararlı olması zaman və təcrübə amilinə əsaslanaraq inkişaf edir. Ancaq məlumat təhlükəsizliyinin qorunması birinci və ən vacib şərtdir.

Gələcəkdə isə kibertəhlükəsizliklə bağlı ölkənin birinci növbədə internet təhlükəsizliyinə diqqətin daha da artırılması, alternativ provayderlərin cəlb olunması, fərdi kibercinayətkarlıqla bağlı müvafiq dövlət qurumlarında xüsusi kadr hazırlığının həyata keçirilməsi təqdirəlayiq olardı.

Çünki dövlətin informasiya sistemlərinin təhlükəsizliyi qorunsa da, zaman-zaman fərdi vətəndaşlarımıza qarşı müəyyən ölçüdə kibercinayətkarlıq halları baş verir. Bu cür halların aradan qaldırılması üçün ən vacib nüans mütəxəssislərin işə cəlb olunmasıdır.

Cənab Prezident İlham Əliyevin internet texnologiyaları və kibertəhlükəsizlik sahəsində lider şirkətlərdən olan "Microsoft" nümayəndələri ilə keçirdiyi onlayn konfransın gələcəkdə ölkəmizdə bu sahə ilə bağlı tətbiq olunacaq yeniliklərə təkan verəcəyinə şübhəm yoxdur".

***Məhəmmədəli QƏRİBLİ***

# Prezident Əliyevin tək iki Qərb şirkəti ilə videogörüşündən çıxan böyük nəticə - Azərbaycan rəqəmsallaşma üzrə dünya öncüllüyünü hədəfləyib

**Məlum olduğu kimi, Prezident İlham Əliyevlə "Microsoft" şirkətinin vitse-prezidenti Filip Roq, Mərkəzi və Şərqi Avropa bölgəsinin korporativ əlaqələr və hüquqi məsələlər üzrə rəhbəri Nanna-Luize Linde və "Microsoft" şirkətinin digər nümayəndələri arasında videokonfrans keçirilib.**



Müasir informasiya texnologiyaları sahəsində dünyanın ən nəhəng şirkətlərindən biri olan "Microsoft"la Azərbaycan dövlətinin uğurlu əməkdaşlıq nümunələri mövcuddur.

Qeyd edək ki, mayın 22-də isə "Signify" (əvvəlki adı "Philips Lighting") şirkətinin təşəbbüsü ilə Prezident İlham Əliyevlə bu şirkətin baş icraçı direktoru Erik Rondolat, MDB üzrə baş meneceri Erik Benedetti və "Signify" rəhbərliyinin digər nümayəndələri arasında videokonfrans keçirilmişdi.

***Şaiq Muradov:** "Bu böyük şirkətlərlə sıx əməkdaşlıq həm təhsil, həm səhiyyə, həm də iqtisadiyyat sahələrində müsbət dəyişikliklərə səbəb olacaq"*

Hər iki şirkətin rəqəmsal texnologiyalar sahəsində məşhur olduğu məlumdur. Bu amil Azərbaycanın rəqəmsal texnologiyalarla gələcək inkişafı üçün nə vəd edir?

İKT üzrə tanınmış mütəxəssis Şaiq Muradov "Bakı-Xəbər"ə bildirdi ki, son zamanlar Azərbaycan dövləti rəqəmsal texnologiyanın ölkəmizdə geniş tətbiqi üçün dünyanın tanınmış aidiyyəti şirkətləri ilə yaxından əməkdaşlıq edir.

Fərqli vaxtlarda "Signify və "Microsoft" şirkətlərinin təmsilçiləri ilə Prezidentin keçirdiyi videogörüşlərin yeni rəqəmsal texnologiyaların Azərbaycana daşınmasına böyük imkan və şərait yaratdığını deyən mütəxəssis hesab edir ki, bu bizə bu sahənin gələcək inkişafı üçün böyük perspektiv vəd edir: "İstənilən böyük texnologiya şirkətlərinin Azərbaycana investisiyası və ya marağı bizim üçün müsbət göstəricidir. Dövrümüzdə texnologiyanın nə dərəcədə əhəmiyyətli olduğu pandemiya zamanında da göründü. Əvvəldən buna hazırlıqlı olan, texnoloji cəhətdən güclü bünövrəsi olan şirkətlər bu dövrdən daha rahat çıxdı. Digər şirkətlər isə texnologiyanın əhəmiyyətinin canlı şahidi oldular. Eyni zamanda, "Microsoft" şirkəti ilə Təhsil Nazirliyinin də əməkdaşlığı sayəsində distant təhsil mümkün oldu. Bu böyük şirkətlərlə sıx əməkdaşlıq həm təhsil, həm səhiyyə, həm də iqtisadiyyat sahələrində müsbət dəyişikliklərə səbəb olacaq. Xarici şirkətlərlə yanaşı, yerli texnologiya şirkətlərinin də böyüməsi üçün təhsil sistemimizdə də texnologiyanın rolu daha da artarsa, düşünürəm ki, bizlər üçün daha faydalı olacaq".

***İradə SARIYEVA***

# Pandemiya ilə Azərbaycan mübarizə modelində yeni element - "balanslı yanaşma..."

## *Rauf Zeyni: "Burada daha çox pandemiyanın vurduğu iqtisadi ziyanların hansı üsullarla kompensasiya olunacağı nəzərdə tutulur"*

**Prezident İlham Əliyev "Microsoft" şirkətinin təşəbbüsü ilə şirkətin vitse-prezidenti Filip Roq, Mərkəzi və Şərqi Avropa bölgəsinin korporativ əlaqələr və hüquqi məsələlər üzrə rəhbəri Nanna-Luize Linde və "Microsoft" şirkətinin digər nümayəndələri arasında keçirilən videokonfrans zamanı Azərbaycanın pandemiya ilə mübarizə sahəsindəki uğurları və taktikasından danışıb.**




Prezident bildirib ki, biz özəl sektora, xüsusilə pandemiyadan əziyyət çəkən sahələrə, turizm və onunla əlaqəli sahələrin bərpasına yardım edəcəyik:

"Beləliklə, fəaliyyətimiz və gələcək planlarımıza gəlincə, əlbəttə ki, əsas diqqəti insanların koronavirusdan qorunmasına yönəltdik və bunun bizim iqtisadi artımımıza çox mənfi təsir göstərəcəyini aydın şəkildə başa düşürük. Bizim bu il üçün çox böyük perspektivlərimiz var idi və ilin birinci rübü çox ümidverici idi. Lakin indi beş ayın nəticələri ümumi daxili məhsulda kiçik azalmanın - təxminən 1,7 faiz azalmanın olduğunu göstərir. Lakin eyni zamanda, iqtisadiyyatın bəzi sektorlarında, xüsusilə neft və qazla əlaqəli olmayan sektorlarda artım qeydə alınıb. Bu səbəbdən, bu gün biz məhdudiyyət tədbirlərini uzlaşdırırıq, çünki COVID-19 hələ də mövcuddur. Eyni zamanda, biz ölkəmizi açmağa və həyatımızın müxtəlif sahələrinin fəaliyyətini bərpa etməyə başlayırıq. Beləliklə, ümidvaram ki, bu balanslaşdırılmış yanaşma bizə, ilk növbədə, pandemiyaya qarşı uğurlu mübarizəni davam etdirməyə kömək edəcək. Eyni zamanda, biz özəl sektora, xüsusilə pandemiyadan əziyyət çəkən sahələrə, turizm və onunla əlaqəli sahələrin bərpasına yardım edəcəyik".

Məlum olduğu kimi, Azərbaycan pandemiya ilə mübarizədə olduqca ciddi uğurlara imza atıb. Ölkə başçısı bundan sonra balanslaşmış yanaşma modelini tətbiq etməklə pandemiya ilə mübarizənin davam edəcəyini bildirib. Bu yeni modeli necə anlamaq olar?

Milli Qeyri Hökumət Forumunun prezidenti Rauf Zeyni "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Azərbaycan bu virusla mübarizədə ilk gündən nizam-intizam nümayiş etdirir:"Cənab Prezidentin rəhbərliyi ilə bu proses Azərbaycan modelinə uyğun şəkildə aparılır. Bura Operativ Qərargahın yaradılması və lazım olan bütün zəruri qərarların verilməsini aid edə bilərik. Dövlətin konkret olaraq nələri etdiyi ilə bağlı biz sizinlə əvvəlki müsahibələrimizdə detallı danışmışıq. Kiçik istisnaları çıxmaq şərtilə deyə bilərik ki, Azərbaycan pandemiya ilə mübarizədə uğurlu nəticələrə imza atıb. Yoluxmada müşahidə olunan artım isə vətəndaşların şəxsi səhlənkarlığına bağlı olan məsələdi. Bu məsələdə ölkəmizdə olan bütün ixtisas sahibləri maksimum dərəcədə virusun qarşısının alınmasında əmək sərf ediblər. Bura polisləri, həkimləri, elə siz jurnalistləri də aid edə bilərik. Bu sahədə QHT-lərin apardıqları maarifləndirmə tədbirlərini xüsusi vurğulamaq istərdim. Cənab Prezidentin qeyd etdiyi balanslı modelin mahiyyəti aydındır. Burada daha çox pandemiyanın vurduğu iqtisadi ziyanların hansı üsullarla kompensasiya olunacağı nəzərdə tutulur. Məsələn, iqtisadiyyatın bir aspektinə dəyən ziyanı digər sahələrin fəaliyyətini gücləndirməklə kompensasiya etmək.

Bura özəl sektora dövlətin verəcəyi dəstəyi də əlavə edə bilərik. Bir tərəfdən koronavirusun qarşısını almaqdan ötrü sərt qərarlar verilir, digər tərəfdən isə dövlət bütün sahələrə yardım edir. Məsələn, həftəsonu sərt karantin qaydalarının hara şamil olunmasında da bu balans gözlənilir. Xüsusilə də kənd təsərrüfatına zərərin az dəyməsi üçün addımlar atılır. Sahibkarlığı ziyandan qorumaq üçün bir milyarddan artıq vəsait ayrılıb. Hesab edirəm ki, Azərbaycanın tətbiq etdiyi xüsusi model həm xəstəliyin qarşısını alacaq, həm də postpandemiya dönəmi üçün önəmli təsirə malik olacaq. Yalnız belə üsullarla biz iqtisadiyyatımızı qoruyub saxlaya bilərik".

***Məhəmmədəli QƏRİBLİ***

---

# Pandemiya dövrü üçün Azərbaycan turizminə əlavə böyük investisiyalar beynəlxalq müzakirə müstəvisində...

## *Fuad İbrahimov: "Pandemiyanın turizm sahəsinə vurduğu ziyan daha böyükdür"*

**"Biz özəl sektora, xüsusilə pandemiyadan əziyyət çəkən sahələrə, turizm və onunla əlaqəli sahələrin bərpasına yardım edəcəyik". Bunu Prezident İlham Əliyev "Microsoft" şirkətinin təşəbbüsü ilə şirkətin vitse-prezidenti Filip Roq, Mərkəzi və Şərqi Avropa bölgəsinin korporativ əlaqələr və hüquqi məsələlər üzrə rəhbəri Nanna-Luize Linde və "Microsoft" şirkətinin digər nümayəndələri ilə keçirilən videokonfrans zamanı deyib.**



Dövlət başçısı bildirib ki, əsas diqqəti insanların koronavirusdan qorunmasına yönəltdik və bunun bizim iqtisadi artımımıza çox mənfi təsir göstərəcəyini aydın şəkildə başa düşürük: "Bizim bu il üçün çox böyük perspektivlərimiz var idi və ilin birinci rübü çox ümidverici idi. Lakin indi beş ayın nəticələri ümumdaxili məhsulda kiçik azalmanın - təxminən 1,7 faiz azalmanın olduğunu göstərir. Lakin, eyni zamanda, iqtisadiyyatın bəzi sektorlarında, xüsusilə neft və qazla əlaqəli olmayan sektorlarda artım qeydə alınıb. Bu səbəbdən bu gün biz məhdudiyyət tədbirlərini uzlaşdırırıq, çünki COVID-19 hələ də mövcuddur. Eyni zamanda, biz ölkəmizi açmağa və həyatımızın müxtəlif sahələrinin fəaliyyətini bərpa etməyə başlayırıq. Beləliklə, ümidvaram ki, bu balanslaşdırılmış yanaşma bizə, ilk növbədə, pandemiyaya qarşı uğurlu mübarizəni davam etdirməyə kömək edəcək. Eyni zamanda, biz özəl sektora, xüsusilə pandemiyadan əziyyət çəkən sahələrə, turizm və onunla əlaqəli sahələrin bərpasına yardım edəcəyik".

Məlum olduğu kimi, pandemiya ilə əlaqədar bundan əvvəl biznesin müəyyən sahələrinə yardım edilib. Sözügedən yardımın yenidən edilməsinin planlaşdırılması həmin sahələrin ayaqda qalmasında, turizm sektoruna əlavə böyük investisiyaların cəlb edilməsində necə rol oynayacaq?

*"Bu sahələrə müəyyən yardım edilməlidir ki, sözügedən sektor çökməsin"*

Məsələyə münasibət bildirən iqtisadçı-ekspert Fuad İbrahimov Prezidentin müəyyən sahələrə, o cümlədən, turizm sektoruna yardımların edilməsini gündəmə gətirməsinə müsbət prizmadan yanaşdı: "Ölkə başçısı hər zaman özəl sektorun inkişafına xüsusi önəm verir. O baxımdan yenidən yardımın edilməsi özəl sektora müsbət təsir göstərəcək. İqtisadiyyatda elə sahələr var ki, pandemiyadan çox zərər çəkib. Xüsusən də turizm sahəsinə bunun vurduğu ziyan daha böyükdür. Hazırda da sözügedən tendensiya davam edir. Əvvəl-axır, bu problem aradan qalxmalıdır. Bunun üçün, ilk növbədə, koronavirusla bağlı sağlam informasiya daxil olmalıdır. Məsələn, məlum olsa ki, koronavirusla bağlı vaksin hazırlanıb, bu, o dəqiqə turizm sektoruna müsbət əsir göstərəcək. Bu zaman turizm sektoruna qoyulan sərmayələr daha effektli olacaq. Çünki pandemiya nəinki Azərbaycanda, bütün dünyada turizmi iflic vəziyyətə salıb.

Ona görə də sözügedən sahənin canlanması pandemiya ilə bağlı gedən proseslərdən asılıdır. Bu nöqteyi-nəzərdən diqqətli olmalıyıq. Ancaq bu sahələrə müəyyən yardım edilməlidir ki, turizm sektoru çökməsin. Çünki, əvvəl-axır, bu problem öz həllini tapacaq. Nəticədə turizm ölkənin ən gəlirli sahələrindən birinə çevriləcək. O üzdən, biz özəl sektoru qorumalıyıq".

***Vidadi ORDAHALLI***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ermənistan Dağlıq Qarabağda etnik təmizləmə siyasəti aparıb

**Çar Rusiyası və dünyanın böyük dövlətləri tərəfindən Azərbaycan torpaqlarına köçürülən ermənilər-haylar bizim ərazilərimizdə yerləşdikdən sonra öz ənənəvi xislətlərinə sadiq qalaraq xalqımıza qarşı etnik təmizləmə siyasəti həyata keçirməyə başlayıblar.**

Tarixçilər qeyd edirlər ki, son iki yüz il ərzində tarixi Azərbaycan ərazisində gedən mürəkkəb siyasi proseslər nəticəsində azərbaycanlılar öz dədə-baba ocaqlarından zorla köçürülmə, onlara qarşı ardıcıl şəkildə həyata keçirilən etnik təmizləmə və deportasiya siyasətinin qurbanları olublar.

Yüz ildən də çox bir zaman ərzində ermənipərəst qüvvələrin və erməni millətçilərinin yürütdükləri ərazi iddiaları və etnik təmizləmə siyasətinin nəticələri göz qabağındadır. Bunu, sadəcə, beynəlxalq qurumlar görməzdən gəlirlər.

Politoloq Elçin Əhmədov müəllifi olduğu "Ermənistanın Azərbaycana təcavüzü: təhlili xronika" (1987-2011) ensiklopedik nəşrində qeyd edir ki, Azərbaycan xalqı son 200 il ərzində erməni millətçilərinin davamlı olaraq etnik təmizləmə, soyqırım və təcavüzkar siyasətinə məruz qalaraq, öz tarixi torpaqlarından didərgin salınıb, qaçqın və məcburi köçkünə çevrilib. "Hər zaman olduğu kimi, XX əsrin 80-ci illərinin sonunda da Dağlıq Qarabağa dair ərazi iddiaları məhz Ermənistanın təbliği, təhriki və təzyiqi ilə ortaya atılmışdı. Heç şübhəsiz, ermənilərin bu ərazi iddiaları birdən-birə deyil, xaricdə olan himayədarları tərəfindən hələ xeyli əvvəl diqqətlə və hərtərəfli plan əsasında hazırlanmışdı. Sovet dövründə ermənilər tərəfindən mərkəzi hakimiyyət orqanlarının himayədarlığı ilə Azərbaycan əleyhinə məqsədyönlü şəkildə təbliğat kampaniyası aparılmış və nəticədə mənfi ictimai fikir formalaşdırılmışdı. Erməni ideoloqları Azərbaycanın tarixi, sosial-iqtisadi inkişafı haqqında faktları açıq-aşkar saxtalaşdıraraq bütün ittifaq miqyasında yaymışdılar.

1988-ci il hadisələri başlayanda ilk vaxtlar erməni siyasətçiləri və onların mərkəzi ittifaqdakı himayədarları tərəfindən vilayətin iqtisadi geriliyi pərdəsi altında Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi üçün uzun müddətdən bəri hazırlanmış plan üzrə Xankəndidə və Yerevanda kütləvi mitinqlər təşkil edildi. Lakin baş verən sonrakı hadisələr DQMV-nin sosial-iqtisadi geriliyi barədə erməni siyasətçiləri və onların mərkəzdəki himayədarlarının irəli sürdükləri bu saxta tezisin yalnız bəhanə, əsas məqsədin isə Ermənistanın Azərbaycana qarşı ərazi iddiasında olduğunu göstərdi.

Bununla yanaşı, Ermənistan SSR Ali Soveti 1989-cu il dekabrın 1-də Azərbaycanın suverenliyini kobud surətdə pozaraq, DQMV-nin Ermənistan SSR-ə birləşdirilməsi haqqında Konstitusiyaya zidd qərar qəbul etdi. Eyni zamanda, DQMV-nin idarə və müəssisələri Ermənistanın müvafiq nazirlik və idarələrinin tabeliyinə verildi. Birbaşa Sovet rəhbərliyinin fəaliyyətsizliyi, bəzən isə açıq himayədarlığı sayəsində DQMV iqtisadiyyatının və digər sahələrinin, faktiki olaraq, Azərbaycandan ayrılması və Ermənistana birləşdirilməsi baş verdi. Bütün rayon partiya komitələri Ermənistan KP-nin tərkibinə daxil oldu. DQMV ərazisində Azərbaycanın dövlət atributları (bayrağı, gerbi, himni və s.) dəyişdirildi və Ermənistanın bayrağı və gerbi qaldırıldı. Ermənistan rəhbərliyi və erməni millətçiləri mərkəzin bəzi dairələrinin köməyi ilə vilayətdə, əsl mənada, Dağlıq Qarabağın iqtisadi, ictimai-siyasi və mədəni cəhətdən mənimsənilməsi prosesi aparırdılar. Təəssüf ki, hadisələrin başlanğıcında erməni millətçilərinin qarşısının alınmaması vəziyyəti get-gedə gərginləşdirirdi. Belə ki, Sovet rəhbərliyinin çox ciddi, bağışlanılmaz səhvləri və ermənipərəst siyasəti 1990-cı ilin sonu - 1991-ci ilin əvvəllərində vəziyyətin getdikcə kəskinləşməsinə gətirib çıxardı ki, bununla da DQMV və Azərbaycanın Ermənistanla həmsərhəd bölgələrində erməni təcavüzü daha geniş miqyas aldı. Nəticədə minlərlə azərbaycanlı SSRİ-nin hakim dairələri tərəfindən himayə edilən ermənilərin işğalçılıq siyasətinin qurbanı oldu. SSRİ-nin süqutundan sonra ermənilər artıq Azərbaycan hökumətinin nəzarət edə bilmədiyi vilayətdə Ermənistandan göndərilən silahlı dəstələr və hərbi texnikanın köməyi ilə azərbaycanlılara qarşı daha qanlı cinayətlər törətdilər. 1992-ci ilin əvvəllərindən başlayaraq Ermənistan ordusu bir-birinin ardınca Yuxarı Qarabağda azərbaycanlılar yaşayan sonuncu yaşayış məntəqələrini də işğal etdi. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri Xankəndidə yerləşən keçmiş SSRİ-nin 366-cı motoatıcı alayının hərbçiləri və ağır texnikasının iştirakı ilə Xocalı şəhərinə hücum edərək şəhəri yerlə-yeksan etdilər. Çoxsaylı ağır texnika ilə şəhər tamamilə dağıdıldı, yandırıldı və insanlar xüsusi qəddarlıqla qətlə yetirildi. Bu soyqırım nəticəsində rəsmi rəqəmlərə görə, 613 nəfər öldürülmüşdü ki, onlardan 63 nəfəri uşaq, 106 nəfəri qadın, 70 nəfəri isə qocalar idi. 8 ailə tamamilə məhv edilmişdi. 487 nəfər şikəst olmuşdu ki, onlardan da 76-sı uşaq idi. Bundan əlavə, 1275 nəfər əsir götürülmüş, 150 nəfər itkin düşmüşdü.

Bununla yanaşı, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi 1992-ci ilin əvvəllərindən başlayaraq daha çox beynəlxalq əhəmiyyətli problemə çevrildi. Belə ki, müstəqilliyini əldə edən Azərbaycan Respublikası ATƏM-in üzvü olduqdan sonra Dağlıq Qarabağ münaqişəsi bu təşkilatın prinsiplərinə uyğun olaraq üzv olan dövlətlərin daha çox müzakirə obyektində oldu".

E.Əhmədov yazır ki, Ermənistanın ərazi iddiası obyekti olan Dağlıq Qarabağ bölgəsinin (4,4 min kv.km) hüdudlarından kənarda yerləşən və onun ərazisindən 4 dəfə böyük olan 7 rayon (Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan) Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi. "Bütün dövrlərdə olduğu kimi, ermənilərin həyata keçirdiyi bu işğalçılıq siyasəti kütləvi qırğınlarla müşayiət olunmuşdur. Belə ki, 1988-1993-cü illərdə Ermənistanın hərbi təcavüzü nəticəsində 20 000 nəfər azərbaycanlı həlak olmuş, 100 000 nəfərdən çoxu yaralanmış, 50 000 nəfər isə müxtəlif dərəcəli xəsarət alaraq əlil olmuşdur.

Ermənistanın Dağlıq Qarabağın erməni icmasının öz müqəddəratını təyin etmək cəhdi kimi qələmə verdiyi bu təcavüzü nəticəsində Azərbaycanın işğal olunmuş ərazilərindən 1 milyondan çox əhali (ümumi əhalinin 15%-i) öz torpağından məcburən köçkün və qaçqın vəziyyətinə düşdü. Hazırda Azərbaycan ərazisinin 20 %-dən çox hissəsi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Eyni zamanda, dövlət terrorizmi və soyqırım siyasəti yeridən Ermənistan Respublikası tərəfindən 1988-1994-cü illərdə, ümumilikdə, müxtəlif səpkili (sərnişin avtobuslarında, sərnişin və yük qatarlarında, Bakı metropolitenində, hava nəqliyyatında, sərnişin daşıyan dəniz bərəsində, yaşayış məntəqələrində, mülki və dövlət obyektlərində) 373 terror aktı törədilmişdir ki, nəticədə 1200 nəfər həlak olmuş, 1705 nəfər yaralanmışdır.

Çox təəssüf ki, dünya birliyi Ermənistanın bu açıq-aşkar təcavüzkarlığına göz yumdu və təcavüzkarın qarşısının alınması üçün heç bir əməli tədbir görmədi. 1992-1993-cü illərdə münaqişəni nizama salmaq üçün BMT Təhlükəsizlik Şurasında aparılan müzakirələr zamanı və Təhlükəsizlik Şurasının 822, 853, 874, 884 saylı qətnamələri qəbul edilərkən Şuranın daimi üzvü olan böyük dövlətlər Ermənistanın təcavüzkar dövlət kimi tanınmasına razılıq verməyərək münaqişənin ATƏT-in Minsk prosesi çərçivəsində atəşkəs və danışıqlar yolu ilə həll olunmasına üstünlük verdilər. Cəzasız qaldığından ruhlanan və bundan istifadə edən Ermənistan tərəfi BMT TŞ-nin münaqişəyə dair qəbul etdiyi 4 qətnaməyə də məhəl qoymadı. ATƏM-in Minsk Qrupunun bu illərdəki fəaliyyətinə nəzər salsaq, demək olar ki, onun BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrini yerinə yetirmək üçün hazırladığı "Təxirəsalınmaz tədbirlər cədvəli" heç bir təsir gücünə malik deyildi.

ATƏM-in başlıca çatışmazlıqlarından biri də məhz ATƏM çərçivəsində və onun himayəsi altında müqaviləni yerinə yetirməkdən imtina edən tərəfə qarşı sanksiya qəbuletmə mexanizminin olmaması idi. Minsk Qrupu tərəfindən qəbul edilən sənədlər yalnız məsləhət və ya tövsiyə xarakteri daşıyırdı. Bununla yanaşı, ATƏM-də tətbiq olunan qarşılıqlı güzəşt prinsipi müqaviləni pozan tərəfə öz əməllərinə görə məsuliyyət daşımamaq imkanı verirdi...".

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Beynəlxalq hüququn gücləndirilməsinə Azərbaycanın da ehtiyacı var - Rusiya-İran bəyannaməsində iştirak perspektivləri...

**Rusiya və İran beynəlxalq hüququn rolunun artırılması haqqında bəyannamə imzalamaq niyyətindədirlər. Rus mətbuatının yaydığı məlumaa görə, bunu Rusiya Xarici İşlər naziri Sergey Lavrov iranlı həmkarı Məhəmməd Cavad Zəriflə danışıqların yekunlarına dair birgə mətbuat konfransında bildirib.**

## *"Çünki bu, bizim dövlətin maraqlarına cavab verir"*

## *Əli Orucov: "Azərbaycan beynəlxalq hüququn rolunun artırılması haqqında bəyannaməyə qoşula bilər"*

Lavrov sözügedən məsələ ilə bağlı bəzi məqamlara toxunub: "Bu gün biz mühüm sənəd - Rusiya Federasiyası və İran İslam Respublikası beynəlxalq hüququn rolunun artırılması haqqında deklorasiyanı imzalayırıq".

Rusiya XİN rəhbərinin sözlərinə görə, bu sənəd bir sıra ölkələrin ədalət və qarşılıqlı hörmət təməllərini sarsıdan "qayda-qanunlara əsaslanan dünya düzəninin" nöqsanlı konsepsiyasını təşviq etmək cəhdlərini nəzərə alaraq aktualdır.

Bununla belə, İranın Xarici İşlər naziri Məhəmməd Cavad Zərif "Twitter" mesajında sözügedən məsələyə toxunub: "İran və Rusiya qlobal böhranların həllində birtərəfli və qanunsuz yanaşmalara qarşı çıxmaq üçün əzmkardırlar".

Qeyd edək ki, İran Xarici İşlər naziri Məhəmməd Cavad Zərif İstanbula səfərindən sonra Rusiya paytaxtı Moskvaya gedib. İran XİN rəhbəri Moskvada rusiyalı həmkarı Sergey Lavrovla görüş keçirib. Görüş zamanı onlar ikitərəfli, həmçinin, regional və beynəlxalq münasibətləri müzakirə ediblər.

O da məlumdur ki, dünyada beynəlxalq hüququn güclənməsi, onun üstünlüyünün təmin olunması bu gün aktualdır. Çünki, prakiki olaraq, bu sahədə problemlər var. Bir sıra hallarda beynəlxalq hüquqa, ondan irəli gələn prinsiplərə əməl olunmur. Beynəlxalq hüququn güclənməsində Azərbaycan da maraqlıdır. O baxımdan sözügedən məsələ ilə əlaqədar Azərbaycan Rusiya-İran bəyannaməsində iştirak edə bilərmi?

Məsələyə münasibət bildirən AMİP funksioneri Əli Orucovun fikrincə, prinsipcə, bu mümkündür: "Məsələ ondadır ki, bu gün dünyada beynəlxalq hüququn gücü xeyli zəifləyib. Bir sıra məsələlərdə beynəlxalq hüquq ya formal təsir bağışlayır, ya da ümumiyyətlə işləmir. Aparıcı dövlətlərin maraqları toqquşduğu üçün, faktiki olaraq, beynəlxalq hüquq, ondan irəli gələn prinsiplər işləmir. Dünyanın gözü qarşısında beynəlxalq hüquq pozulur. Təbii ki, bütün bunlar bir sıra problemlərə yol açır. İkili standartların hökm sürdüyü müasir dövrdə separatizm meylləri artır ki, bu da münaqişələrin alovlanmasına, qaçqınların sayının artmasına təkan verir. Yaxın Şərqdə yaşananlar buna əyani sübutdur. Azərbaycan 30 ildir erməni təcavüzündən əziyyət çəkir. Torpaqlarının 20 faizi işğal olunub. Bununla bağlı BMT-nin 4 qətnaməsi var, amma indiyə qədər bunların heç biri təmin edilməyib. O baxımdan, Azərbaycan da çox istərdi ki, dünyada beynəlxalq hüquq işləsin. Beynəlxalq hüquqdan yalnız hansısa böyük dövlətlərin maraqlarını təmin etmək üçün istifadə edilməsin. O üzdən, hesab edirəm ki, Azərbaycan beynəlxalq hüququn rolunun artırılması haqqında bəyannaməyə qoşula bilər. Çünki bu, bizim dövlətin maraqlarına cavab verir".




**Vidadi ORDAHALLI**

---

# Çarukyan məsələsindən sonra Paşinyan ən yaxın adamlarından şübhələnməyə başlayıb

**Erməni mediasının məlumatına görə, Çarukyan məsələsindən sonra Paşinyan ən yaxın silahdaşlarından belə şübhələnməyə başlayıb. Paşinyan hakimiyyəti gücləndirilmiş döyüş hazırlığı elan edib. Bu haqda məlumatı "İrates" qəzeti yazıb.**



## *Məhəmməd Əsədullazadə: "Nikol istefaya gedə və ölkədə yenidən seçkilər keçirilə bilər"*

Qəzetin yazdığına görə, Qagik Çarukyanla bağlı bir neçə ssenarinin müzakirəsinə paralel olaraq, hakim "Mənim addımım" blokundan olan deputatların davranışları da müzakirə olunur. Paşinyan parlament sədri Ararat Mirzoyan və baş nazir müavini Tiqran Avinyanı təcili yanına çağırdığını və Çarukyanla "oyunlarından" xəbərdar olduğunu deyib. A.Mirzoyan and içərək heç nədən xəbəri olmadığını bildirib və Baş prokurorun parlamentə gəlişi, Q.Çarukyanın parlament toxunulmazlığından məhrum edilməsi zamanı keçirilən gizli səsvermədə "onun" deputatlarının davranışlarından çox narahat olduğunu gizlətməyib. Paşinyan isə Mirzoyana inanmayıb.

Qəzet daha sonra yazır: "Onlar qarşılıqlı dəmarşa əl ata bilərlərmi? "Mənim addımım" fraksiyasının deputatlarının səslərinin necə idarə ediləcəyini hələ də anlaya bilmədik: yadınıza salın, bir zamanlar deputat Paşinyan "Ermənistan Milli Konqresi"nin şübhələrini aradan qaldırmaq üçün Baş prokuror vəzifəsinə Gevork Kostanyanın namizədliyi ilə bağlı səsvermə zamanı özünün seçki bülleteninin fotosunu çəkmişdi. Eyni sxemin tətbiq ediləcəyi istisna edilmir".

Görünən odur ki, Ermənistandakı son proseslərdən sonra Paşinyan ən yaxın sılahdaşlarından belə şübhələnməyə başlayıb. Ümumilikdə, bütün bunlar Paşinyana nə vəd edir?

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadə buna bir neçə aspektdən yanaşdı: "Ermənistanda "Çiçiklənən Ermənistan" partiyasının sədri G.Çarukyana qarşı cinayət işinin açılması və bu səbəbdən yaranan etirazlar, əlbəttə ki, Paşinyan üçün soyuq duş effekti yaratdı. Paşinyan vaxtilə müttəfiqi olan Çarukyandan belə bir mövqe gözləmirdi. Ona görə də ona qarşı sərt tədbirlərə əl atdı. İlk növbədə, Çarukyan həm Robert Köçəryan, həm də Serj Sarkisyanla işbirliyində olub. İndi də onun Paşinyanla işbirliyində olması yeni bir siyasi gediş idi. Görünən odur ki, bunu Paşinyan indi anlayır. Ona görə də ona və həm də öz ətrafına qarşı yeni həmlələrə başlayır. Çünki artıq müttəfiq hesab etdikləri ona qarşı çıxırlar.

## *"Ararat Mirzoyan və digərlərinin Rusiyaya bağlı olması..."*

Qeyd edim ki, Rusiya Paşinyanın normal siyasi hakimiyyətinin davam etməsinə imkan verməyəcək. Bu məsələlərin arxasında Kremlin durduğunu istisna etmirəm. Məhz A.Mirzoyan və digərlərinin Rusiyaya bağlı olması, Kreml tərəfindən onların "verbovka" edilməsi Paşinyanı şübhələndirir. Keçmiş MTX sədri və Paşinyanın sabiq komanda üzvü olan Artur Vanetsyanın Rusiya tərəfinə keçməsi Nikolun öz komanda üzvlərindən şübhələnməsinə gətirib çıxarıb. Hesab edirəm ki, Paşinyan üçün çətin siyasi dönəm başlayır. O, istefaya gedə və ölkədə yenidən seçkilər keçirilə bilər".

**Vidadi ORDAHALLI**

# Qarabağ məsələsində Ermənistan dalana girəndə, bu ölkədə daxili siyasi böhran yaradılır - Parlament deputatı həbs etdirir, jurnalistlər döydürülür...

**Ermənistan parlamenti "Çiçəklənən Ermənistan" partiyasının rəhbəri Qaqik Tsarukyanın həbsi barədə Baş prokurorun ikinci müraciətini təsdiqləyib. Erməni KİV-nin verdiyi xəbərə görə, o, 2017-ci il parlament seçkilərində seçiciləri pulla ələ almaqda şübhəli bilinir. Parlamentin iclasında Q.Tsarukyanın deputat toxunulmazlığı da ləğv edilib.**



## *Fərəc Quliyev: "Biz öz gələcək addımlarımızda hərbi özündə ehtiva edəcək siyasət yürütmək barədə də ətraflı düşünməliyik"*

Daha əvvəl qanunverici orqan Baş prokuror Artur Davtyanın Q.Tsarukyanın məsuliyyətə cəlb edilməsi haqqında birinci ərizəsini qəbul etmişdi. Lakin A.Davtyan deputatın öz nüfuzundan istifadə edərək istintaqın gedişatına təsir göstərəcəyindən ehtiyat etdiyi üçün həbsinə icazə istəyib.

Q.Tsarukyanın rəhbərlik etdiyi "Çiçəklənən Ermənistan" partiyası 2004-cü ildə yaradılıb. Hazırda partiya parlamentdəki 132 yerdən 25-nə sahibdir.

Partiya sədri ilə bağlı verilən qərara etiraz əlaməti olaraq Ermənistan parlamentinin binası qarşısında aksiya keçirilib. Hüquq-mühafizə orqanları narazı kütləyə dağılışmaq əmri verib, tabe olamayanlarla sərt davranılıb. Aksiyanı işıqlandırılan bir neçə jurnalist vəhicəsinə döyülüb. Parlamentin binası qarşısına əlavə polis qüvvələri və suvuran maşınlar cəlb olunub.

Məlumata görə, hüquq-mühafizə orqanlarının əməkdaşları "Çiçəklənən Ermənistan" Partiyasının ölkə vilayətlərindəki ofislərində də axtarış aparıblar.

Q.Tsarukyan 2017-ci ilin aprelində keçirilən parlament seçkiləri zamanı seçicilərin səsini rüşvətlə almaqda, "gizli səsverməni pozmaq"da ittiham olunur. Bu saxtakarlığın iştirakçısı olmaqda şübhəli bilinən 250 nəfər polis bölməsinə aparılıb. Ölkədəki repressiv addımlara baxmayaraq, nədənsə Qərbin institutları baş verənlərlə bağlı mövqe ortaya qoymur. Əslində bu siyasi gərginliklə bağlı fərqli fikirdə olanlar da var. Bildirilir ki, Ermənistanda siyasi böhranın yaranması təsadüfi deyil.

Meydanlardan dövlət başına gətirilən Paşinyanın təcrübəsizliyi və siyasi səriştəsizliyi öz məntiqi sonluğuna yaxınlaşmaqdadır. Narazılıq elə bir həddə çatıb ki, hətta koronavirusun qorxusu belə insanları kütləvi etiraz aksiyalarından çəkindirmir və özünü demokrat elan edən Paşinyan etirazçılara, hətta narazı deputatlara belə polis zorakılığı göstərməkdən çəkinmir. Paşinyan yaxşı bilir ki, onun hakimiyyətinin ömrünə çox qalmayıb. Bunu son vaxtlar ölkədə birinin ardınca verilən istefalar da təsdiqləyir. Ancaq maraqlı məqam budur ki, hər dəfə Qarabağ münaqişəsi ilə bağlı məsələlər son nöqtəyə çatanda, Ermənistan beynəlxalq birlik tərəfindən divara dirənəndə bu ölkədə siyasi böhran yaranır, hakimiyyət dəyişir və beləliklə danışıqlar prosesi yenidən uzadılır.

Ermənistanda baş verənlər təbii prosesdi, yoxsa diqqəti Qarabağ problemindən yayındırıb, vaxt udmaq üçün qurulan ssenaridir?

Milli Dirçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Avropa təsisatları bu cür məsələlərdə hər zaman seleksiya siyasəti aparıblar:"Onlar Ermənistana hər zaman özlərinin şuluqçu övladları kimi yanaşıblar. Bu yanaşma yalnız Ermənistanın daxili siyasətilə bağlı müşahidə edilməyib. Ermənistan Azərbaycanın işğal altında saxladığı ərazilərində kütləvi qırğın silahlarının komponentlərini basdırdanda da biz eyni mövqeyi görmüşük. Azərbaycan ərazilərindən narkotik plantasiyaları salınması və tranziti üçün istifadə edirlər, buna əhəmiyyət verən yoxdur. Ermənistandakı daxili ziddiyyətlər çox vaxt daxili erməni oyunu kimi qurulur. Buna qəti şübhə ola bilməz. Ümumerməni məqsədlərinə təhdid hiss edildiyi anda dərhal oyunçuları dəyişmək əmri verilir. Bu yaxınlarda Paşinyan gedib Levon Ter-Petrosyanla görüşdü. Vaxtilə həmin eks-prezident də eyni ssenari ilə hakimiyyətdən uzaqlaşdırılmışdı. Son zamanlar Avropa Parlamentinin Ermənistanla bağlı üç komponenti özündə ehtiva edən kəskin qərarı verməsi, Azərbaycanın diplomatiya sahəsində atdığı konkret addımlar, eyni zamanda Müdafiə Nazirliyinin də sərt güc dilində danışması onları qorxuya sala bilər. Çox güman, məhz bu kontekstdə hansısa dəyişikliyi etməyi düşünürlər ki, yenə sıfır variantından başlasınlar.

Onlar belə praktikanı bir neçə dəfə sınaqdan çıxarıblar. Digər amil isə Ermənistanın xarici siyasət kursunu dəqiq müəyyən etməməsilə bağlıdır. Görünür, Rusiyameylli qüvvələr Paşinyanı devirmək planı üzrə hərəkətə keçib. Biz bu situasiyadan istifadə edib Qarabağ probleminin nizama salınması ilə bağlı ciddi addımlar atmalıyıq. Beynəlxalq aləmi Ermənistandakı qanunsuzluqlara reaksiya verməyə vadar etməliyik. Biz öz gələcək addımlarımızda hərbi özündə ehtiva edəcək siyasət yürütmək barədə də ətraflı düşünməliyik".

***Məhəmmədəli QƏRİBLİ***

# Ermənipərəst "Human Rights Watch" Azərbaycana qarşı yeni təşkilatlar çıxarır - İnsan Haqları Evi Fondu, İnsan Haqları Evləri Şəbəkəsi...

**Daha bir təşkilat Azərbaycanı hədəf alıb. Belə ki, beynəlxalq hüquq müdafiə təşkilatı olan İnsan Haqları Evi Fondu və İnsan Haqları Evləri Şəbəkəsi ölkədə COVID-19 başlayandan bəri Azərbaycan hakimiyyətinin dinc aksiyalara, habelə müstəqil və müxalif səslərə guya güclənən hücumları ilə bağlı narahatlığını ifadə edib.**




## *Vüqar Rəhimzadə: "Bir sıra beynəlxalq insan haqları təşkilatları var ki, onlar yalnız ölkəmizi qaralamaq məqsədi güdürlər"*

Guya ki, bu sahədə Azərbaycanda vəziyyət dözülməzdir. Məsələnin biabırçı tərəfi odur ki, sözügedən hüquq müdafiə təşkilatları "Human Rights Watch"un Azərbaycanla bağlı qərəzli hesabatlarına da istinad ediblər.

İnsan Haqları Evi Fondu və İnsan Haqları Evləri Şəbəkəsi bir qədər irəli gedərək hökumətə çağırış da ediblər: "Biz Azərbaycan hakimiyyətini insan haqları pozuntularını dərhal dayandırmağa və beynəlxalq birliyi hökuməti cavabdeh tutmağa çağırırıq".

Qeyd edilir ki, ifadə və sərbəst toplaşmaq azadlığı əsasdır və Azərbaycanın beynəlxalq hüquq qarşısında öhdəlikləri var. Bununla yanaşı, hakimiyyət guya pandemiyadan istifadə edərək, pandemiyaya məhəl qoymayan və infeksiyanın artmasını şübhə altına alan hər kəsə qarşı daha bir sərt basqı həyata keçirir. Daha sonra iddia edilir ki, guya pandemiya ilə əlaqədar siyasi müxalifətə hücumlar çoxalıb: "Apreldə "Human Rights Watch" Azərbaycan hakimiyyətini koronavirusun yayılmasının gecikdirilməsi üçün tətbiq edilmiş məhdudiyyətlərdən hökuməti tənqid edənlərin həbsi məqsədilə sui-istifadə etməkdə ittiham edib".

İnsan Haqları Evləri şəbəkəsi onu da bildirib ki, koronavirusla bağlı yoluxma və ölüm saylarını azaltmaq üçün həyata keçirilən tədbirləri dəstəkləyir. Lakin dövlət orqanları bu tədbirləri görərkən insan haqları pozuntularına yol verməməlidirlər.

Göründüyü kimi, insan haqlarından danışan bəzi beynəlxalq təşkilatlar "Human Rights Watch"un təsiri altına düşərək, Azərbaycanı qaralamağa çalışırlar. Hətta bəzi hallarda "Human Rights Watch" bu kimi təşkilatları qabağa verərək onlardan alət kimi istifadə edir.

## *"Qeyri-hökumət təşkilatı kimi fəaliyyət göstərən bu təsisatlar bəzi dairələrin əlində rıçaq rolunu oynayırlar"*

Məsələyə münasibət bildirən "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadənin sözlərinə görə, insan hüquqları adından danışan müəyyən beynəlxalq təşkilatlar dünyanın bir sıra ölkələri, o cümlədən, Azərbaycanla bağlı ədalətsiz mövqe sərgiləyirlər: "Qeyri-hökumət təşkilatı kimi fəaliyyət göstərən bu təsisatlar bəzi dairələrin əlində rıçaq rolunu oynayırlar. Müəyyən ölkələrə təsir etmək üçün zamanı gələndə onlardan istifadə edirlər. İnsan Haqları Evi Fondu və İnsan Haqları Evləri Şəbəkəsi də belə təşkilatlar kateqoriyasına aiddir. Olmayan şeyləri uydururlar. Necə ki, "Human Rights Watch" yalanlar uydurur. Pandemiya dövründə Azərbaycanda hansı insan haqlarının pozulmasından söhbət gedə bilər? İndiyə qədər Azərbaycan COVID-19-la mübarizədə dünya ölkələrinə nümunə göstərilib. Bütün dünyanın koronavirus pandemiyasına qarşı mübarizə apardığı bir dövrdə bir sıra beynəlxalq insan haqları təşkilatları var ki, onlar yalnız Azərbaycanı qaralamaq məqsədi güdürlər. Ölkəmizi ləkələmək və nüfuzdan salmaq üçün addımlar atılır. Ona görə də bunlar anti-Azərbaycan qüvvələrin əlində alət rolunu oynayırlar. Eyni zamanda, bu təşkilatlar erməni lobbisinin təsiri altındadırlar. Bu yeni deyil. Uzun illərdir ölkəmizə qarşı belə qərəzli yanaşmalar var. Ona görə də belə hallara çox fikir vermək lazım deyil".

***Vidadi ORDAHALLI***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Avroparlament şokunun ardından İran və Rusiya da Ermənistandan üz döndərir

**Avropa Parlamentində bu günlərdə aldığı sərt diplomatik zərbədən sonra Ermənistanın xarici siyasətində digər istiqamətlərdə də mövqeyinin zəifləməsi müşahidə olunur. Xüsusən də İran və Rusiya ilə bu ölkənin münasibətlərində ciddi problemlər özünü getdikcə daha qabarıq formada büruzə verir.**

Xatırladaq ki, Ermənistanın işğal siyasətinin bu qədər davam etməsində onun İran və Rusiya ilə münasibətləri mühüm rol oynayıb. Amma indi vəziyyət dəyişir və Ermənistana verilən dəstək geri çəkilir. Belə vəziyyət isə, ekspertlərə görə, Dağlıq Qarabağ münaqişəsinin gedişinə mütləq mənada təsirini göstərəcək. Hazırda Ermənistanın İranla münasibətlərində ciddi gərginlik müşahidə olunur. Xüsusən də Ermənistanın İsraildə səfirlik açması İranda ciddi etirazlara səbəb olub. Xatırladaq ki, hələ ötən həftə buna etiraz edən bir qrup tələbə Tehranda Ermənistan səfirliyi qarşısında etiraz aksiyası keçirib. Aksiya iştirakçıları qeyd ediblər ki, Ermənistan hökuməti ikiüzlü və riyakardır. Bildirilib ki, diplomatiya adı altında yalan danışan rəsmi İrəvan səfirlik açmaq planlarına yenidən baxmalıdır. Erməni siyasi şərhçi Abraham Qasparyan bildirib ki, nümayişçilər rəsmi İrəvandan Təl-Əvivə qarşı düşmən mövqeyini qəbul etməyi tələb ediblər:"Tehranda Ermənistan səfirliyi qarşısında keçirilmiş etiraz aksiyası İranın Ermənistana şəffaf mesajı idi". Ermənistanın "Orbeli" mərkəzinin eksperti Karen Veranyanın sözlərinə görə, bu problem tamamilə həll olunmalıdır:"Ermənistan səfirliyi qarşısında etiraz aksiyası İran hakimiyyətinin xəbəri olmadan baş verə bilməzdi".

Ümumiyyətlə, Ermənistanda hesab edilir ki, İranın narazı mövqeyi İrəvan üçün ciddi problemlərə çevriləcək. Bu xüsusda İranın Azərbaycana münasibəti və Qarabağ məsələsinə dair mövqeyi də İrəvanı kifayət qədər narahat edir. Düşmən ölkədə açıq etiraf edilir ki, Ermənistan hakimiyyəti istənilən yolla xarici əlaqələrdə hər şeyin yaxşı olduğunu göstərməyə çalışsa da, faktlar başqa şeydən xəbər verir. Ermənistan mediasının yazdığına görə, xarici işlər naziri Zöhrab Mnatsakanyan Ermənistan-İran münasibətlərinin normal şəkildə inkişaf etdiyini, Ermənistanın öz maraqlarını sona qədər davam etdirməsini və İrəvanın heç vaxt bir digər dövlət hesabına başqaları ilə münasibətlər qurmadığını əks etdirən məzmunda açıqlama versə də, real durum fərqlidir. "Politik.am" nəşri yazır ki, Nikol Paşinyanın kabinetinin səmimiliyinə Tehranda nə dərəcədə inandıqlarını söyləmək çətindir, ancaq İranın Bakıdakı səfirinin Qarabağın Azərbaycanlı İcmasının rəhbəri, Azərbaycan parlamentinin üzvü, Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin üzvü Tural Gəncəliyevlə görüşməsi çox şeydən xəbər verir:"Altı min illik dövlətçilik tarixi və altı min illik diplomatiya təcrübəsi olan İran, şübhəsiz ki, birbaşa Paşinyanın kabinetinə heç nə deməyəcək. Ancaq rəmzlər və mesajlar dilində deyilənlər və ya istəsəniz, xüsusilə belə görüşlərin əvvəlcədən olmaması halında, İrəvanın Təl-Əvivdə səfirlik açması qərar demarşı çox şeydən xəbər verir və indiki Ermənistan hökuməti buna məhəl qoymaya bilməz. İran Dağlıq Qarabağ münaqişəsinin həllində siyasi düzgünlüyün bütün mümkün hədlərini qoruyub saxlamışdı. İndi isə İranın Bakıdakı səfirliyi həmin görüş haqqında sözün həqiqi mənasında yazır: "səfir israr edir ki, Dağlıq Qarabağın sülh yolu ilə həlli Azərbaycanın ərazi bütövlüyü çərçivəsində və bölgə ölkələrinin təşəbbüsü ilə həyata keçirilməlidir". Əlbəttə, bölgə ölkələrinin kim olduğunu başa düşürük. Ermənistan artıq İran cəbhəsində də Azərbaycana uduzur".

Erməni siyasi ekspert Karen Sarkisyan isə bildirir ki, İranla yanaşı, Rusiya ilə də bağlı Ermənistanın problemləri dərinləşir:"Nikol Paşinyan iqtidarı Rusiya ilə münasibətləri qırılma həddinə çatdırıb. Bu durumda Ermənistanın təkcə xarici yox, həm də daxili siyasi vəziyyəti olduqca gərgindir. Moskva bu vəziyyətdə Ermənistan Milli Təhlükəsizlik Xidmətinin keçmiş direktoru Artur Vanetsyan - "Çiçəklənən Ermənistan" Partiyasının qurucu sədri Haqik Tsarukyan - Ermənistanın Vatikandakı keçmiş səfiri Mikayel Minasyan üçlüyünü dəstəkləyir. Paşinyana daha çox zərbə vurmaq üçün isə Kreml iqtisadi rıçaqlardan, siyasi təzyiqlərdən, Qarabağ kartından da istifadə edəcək". Erməni mediası yazır ki, bu durumda Rusiyanın Paşinyanı qəbul etməməsi təəccüblü deyil. Xatırlanır ki, hələ 2019-cu ilin sonunda Ermənistanın baş naziri "Kommersant"a müsahibəsində 2020-ci ilin birinci yarısında Rusiyaya ilk rəsmi səfər edəcəyini söyləmişdi. Paşinyan bu ilin əvvəlində Qafanda keçirdiyi mətbuat konfransı zamanı da gələcək səfəri barədə danışmışdı:"Vladimir Putinlə kifayət qədər çox tez-tez görüşürük. Bu təkcə birbaşa görüşlə bağlı deyil. Keçən il Rusiya Prezidenti ilə rəsmi səfərlər edəcəyimiz barədə razılığa gəldik və indi ilin birinci yarısında Moskvaya rəsmi səfərim barədə iş aparırıq". Amma ilin birinci yarısı başa çatsa da, səfərdən xəbər yoxdur. Paşinyanın Moskvada rəsmi səfərlə qəbul edilməsindən imtina edilməsinə dair xəbərlər isə Putinin Paşinyanı qəbul etmədiyini nümayiş etdirir. Yayılan məlumatlara görə, Paşinyanın xarici siyasətdə yol verdiyi yanlışlıqlar, Ermənistan daxilində Moskvaya bağlı adamları sıxışdırması, Ermənistanda fəaliyyət göstərən xarici bioloji laboratoriyalar haqqında müqavilənin imzalanmasının ləğvi Kremli hiddətləndirir. Bu yaxınlarda isə Paşinyanın iyunun 24-də Moskvada keçiriləcək hərbi paradda iştirak etməyə hazırlaşdığı məlum oldu. Xəbəri Paşinyanın mətbuat katibi Mane Qevorkyan KİV-lə söhbətində təsdiqləmişdi. O, Paşinyanın iştirak edəcəyini təsdiqlədiyini söyləsə də, ancaq gündəliyi və mümkün görüşlər haqqında hazırda məlumat olmadığını bildirib.

Paşinyanın mətbuat katibindən hakimiyyətin iddiasına görə koronavirus yoluxması səbəbilə təxirə salınan rəsmi səfərin bəs nə vaxt olacağının dəqiqləşdirilməsinə cəhd edilib. Qevorkyan bir daha rəsmi səfərin koronavirus səbəbilə təxirə salındığını və bunun indiki məqamda nə vaxt reallaşacağını bilmədiyini söyləyib. Bu baxımdan, Ermənistan hökumətinin iddiaları inandırıcı deyil, çünki koronavirusla bağlı təxirə salınan hərbi parad iyunun 24-də Paşinyanın da iştirakı ilə keçiriləcək. Əslində 24 iyun səfəri Paşinyan üçün çox vacib və həlledicidir. Həmin gün Paşinyan rəsmi səfərlə qəbul edilməsinə razılıq verilməsi üçün Vladimir Putinin razılığını əldə etməyə çalışacaq. Amma erməni mediası yazır ki, Moskvadakı mənbələr Putinin buna qarşı olduğunu bildirir. "168.jam" bu xüsusda yazır: "Putin və ümumilikdə Rusiya Paşinyanı qəbul etmir. Burada bir məsələni xatırladaq ki, ötən həftə baş tutan mətbuat konfransı zamanı Rusiyanın Ermənistandakı səfiri Sergey Kopirkin ABŞ-ın yardımı ilə Ermənistanda yaradılmış biolaboratoriyalarla bağlı Ermənistan-Rusiya müqaviləsinə toxunaraq, bu razılaşmanın ən qısa müddətdə imzalanacağına ümid etdiyini bildirib. O qeyd edib ki, koronavirus səbəbindən proses ləngiyib. Əslində, gecikmənin səbəbi tərəflərin məzmun mövzusunda razılığa gəlməmələridir. Rusiya kifayət qədər Ermənistanla maraqlanır, müntəzəm olaraq orada özünə qarşı təhlükəli hadisələrin baş verdiyinə dair şübhələrini artırır. İrəvan müntəzəm olaraq bunları rədd edir və rusiyalı mütəxəssislərin Rusiyanı təhdid edən heç bir şey olmadığına əmin olmaq üçün laboratoriyalara girməsinə icazə verməyə hazır olduğunu bildirir. İrəvan bunların ABŞ-ın köməyi ilə tikildiyini, lakin Ermənistanın mülkiyyəti olduğunu vurğulayır. Rusiya isə mütəmadi olaraq şübhələri artırır, bu da şübhə və ya nəticəyə gətirib çıxarır ki, Moskva bu laboratoriyaları "nəzakətli" şəkildə öz nəzarəti altına almaq istəyir. Səfir Kopırkin müəyyən mənada saziş məsələsinin həllinin Ermənistan, Rusiya və bütün postsovet məkanında sanitar-epidemioloji vəziyyətə faydalı təsir göstərəcəyini qeyd edərək, buna işarə edib. Bu, Moskvanın təkcə nəzarət etməyə, izləməyə deyil, həm də birbaşa defakto ələ keçirməyə çalışdığının əyani sübutudur. Başqa sözlə, problem həmişə olduğu kimi Ermənistanın suverenliyidir. Bu mənada, Rusiya hücumunun yalnız daxili siyasətdə deyil, həm də daxili hüquqi adlandırılan sahədə şiddətləndiyi aydın olur. Rusiya Ermənistanın addımlarından qəzəblidir və buna görə artıq İrəvanı cəzalandırmağı düşünür. Bu mənada istisna olunmur ki, Paşinyan Rusiyaya gedəcəyi halda Moskva onu aşağılamağa çalışacaq. Məsələn, Putin tərəfindən ayrıca qəbul edilməmə bunun göstəricisi olacaq. Əvəzində Azərbaycana edilən jest Paşinyana Qarabağ məsələsində də mühüm mesajlar verə bilər". Digər tərəfdən, Moskvada Paşinyanın faşizmə xidmət edən Qaregin Njdenin müdafiəsinə qalxması, babasının SS-çilərlə işbirliyində olması da nəzərə alınır. Kremldə görürlər ki, Paşinyan Rusiya ilə Qərb arasında oyun oynamağa çalışır və faktiki olaraq hər addımında özünü daha rüsvayçı vəziyyətə salır. Azərbaycanla bağlı isə durum tamamilə fərqlidir. Bakının və İrəvanın fərqli siyasətini bütün dünya, İran, Rusiya, Avropa görür və buna görə də hər keçən gün Azərbaycana münasibət yaxşı mənada dəyişməkdədir. Təbii ki, belə vəziyyət Qarabağ münaqişəsinin gedişinə də öz təsirini göstərir.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# 1949-cu ilin 14 iyununda SSRİ-də ermənilərin hansı deportasiyası olub? - 1915-ci ilin saxta genosidinə daha bir uydurma tarix əlavə edilir...

**Qasım Hacıyev:** *"...başqa xalqları güdaza verdilər, amma özlərini repressiyadan xilas etdilər"*

**Yenə ermənilərin saxtakarlıq və yalan üyüdən dəyirmanı işə salınıb. Həmişə yeni-yeni əsassız iddialar, həqiqətə uyğun olmayan "faktlar" sərgiləyən ermənilər bu dəfə elə bir material ortaya çıxarıblar ki, onu oxuyan hər kəs yalnız buna gülə bilər.**

Guya ki, 14 iyun 1949-cu ildə ermənilər Ermənistandan SSRİ-nin, xüsusən də Rusiyanın müxtəlif vilayətlərinə "deportasiya" ediliblər. Məlum olduğu kimi, o dövrdə müxtəlif xalqlar, etnik qruplar SSRİ rəhbərliyi tərəfindən sürgün edilirdilər, amma o xalqların sırasında ilk dəfədir ermənilərin adı çəkilir, o da özləri tərəfindən.

Erməni mediası yazır ki, SSRİ-də ayrı-ayrı xalqların tamamilə və ya qismən deportasiyası 1919-cu ildən 1953-cü ilə qədər həyata keçirilib və mövcud hesablamalara görə, təxminən 6,15 milyon insan deportasiya edilib. Erməni mətbuatı qeyd edir ki, 1989-cu ildə Sov.İKP MK-nın üzvləri V.Medvedyev, V.Kryuçkov, A.Yakovlev, A.Lukyanov, E.Primakov, A.Girenkonun iştirakı ilə məcburi köçürülməyə məruz qalan xalqların tam siyasi reabilitasiyası məsələsi müzakirə edilib. Bu mövzuda qərar layihəsi tərtib olunub.

Erməni mediası burada kabardin balkarların, inquşların, kalmıkların, qaraçayların, krım tatarlarının, çeçenlərin, almanların, Məşhəti türklərinin Sibirə, Qazaxıstana və Orta Asiyanın digər yerlərinə sürgün edildiyini qeyd edib. Daha sonra məcburi köçürülmə siyasətinin keçmiş SSRİ-də yaşayan koreyalıların,yunanların, kürdlərin taleyinə mənfi təsir etdiyini yazan erməni mediası erməniləri də bu xalqlara peyvənd edir. Guya ki, 1936-1937-ci illərdə Ermənistanda etnik deportasiyalar baş verib və iki dəfə ermənilər və kürdlər "deportasiya ediliblər". 1949-cu ildə isə daşnakların Ermənistandan deportasiya edildiyini iddia edən erməni mediası əsassız olaraq bildirir ki, etnik ermənilərin SSRİ-nin müxtəlif yerlərinə köçürülməsi "Repressiya edilmiş şəxslər haqqında" Qanunda əks olunmur.

Ermənistan mətbuatı qeyd edir ki, guya 1949-cu ildə ermənilərin "Qara dəniz sahilindən və Qafqazdan deportasiyası" baş verib, "bu əməliyyat çərçivəsində" "deportasiya" olunan 56.000 nəfərin yarısı yunanlar, digərləri isə "daşnaklar" kimi göstərilən ermənilərdir. Onlar iddia edirlər ki, Türkiyədən köçürülən ermənilər də "deportasiya edilib".

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Qafqazşünaslıq İnstitutunun erməníşünaslıq şöbəsinin müdiri, professor Qasım Hacıyev qeyd etdi ki, ermənilər tərəfindən uydurulan erməni soyqırımı oyununda sonra indi də qondarma deportasiya məsələsinin ortaya atılması təsadüfi deyil. Son zamanlar Azərbaycanda soydaşlarımızın XX əsrdə bir neçə dəfə erməni daşnakları tərəfindən soyqırıma və deportasiyaya məruz qaldıqları, bütövlükdə, ermənilərin həyata keçirdikləri etnik təmizləmə siyasəti haqqında kifayət qədər tədqiqat aparılıb, yazılar, əsərlər yazılıb. Bunun da erməniləri qıcıqlandırdığını və insanların diqqətini yayındırmaq üçün indi də ermənilərin, eləcə də kürdlərin, daşnakların deportasiyaya məruz qaldıqlarını iddia etdiklərini qeyd edən Q.Hacıyev vurğuladı ki, bu, növbəti erməni saxtakarlığıdır. "Ermənilər son zamanlar arxivlərdən çox "materiallar" toplayırlar, "sənədlər" çıxarıb yalan, saxtakarlıq dolu kitablar çap edirlər, "qədim mənbələr", "qədim xəritələr" yaradırlar. XX əsrdə erməni alimlərinin, tarixçilərinin, siyasətçilərinin apardıqları saxtakarlıq, yalan, uydurma kampaniyası artıq Ermənistanda dövlət siyasətinə çevrilib. Bunların hamısının da mahiyyətində hər yerdə erməni olduğunu, ermənilərin "qədim tarixə" malik olduqlarını "sübut etmək" dayanır. Gördüyünüz kimi, artıq ermənilərin saxtalaşdırma siyasəti SSRİ dövrünə aid olan arxiv sənədlərini də əhatə edir. Onlar arxiv sənədlərini təhrif edərək müəyyən əsərlər yazırlar və əvvəldən həyata keçirdikləri siyasəti davam etdirirlər. Əvvəla Sovet dövrünün ilk illərində belə bir proses gedirdi. "Daşnaksütyun" partiyası ilə bağlı Azərbaycan, gürcü və bəzi erməni tarixçiləri yaxşı bilirlər ki, bu partiya ermənilər Qafqaza köçürüldükdən sonra qarşısına erməni dövləti yaratmaqla bağlı məqsəd qoymuşdu. Amma daşnaklar erməni dövləti yaratmaq üçün cinayət törətməyi, terror etməyi də nəzərdə tuturdular. Partiya tələb qoymuşdu ki, erməni olsa belə erməni lərə qaraçı deyənlər öldürülsün, asılsın, yaxud erməni dövləti yaratmağın əleyhinə olanlara qarşı terror aktları həyata keçirilsin. Bunlar hamısı baş verib. XX əsrin əvvəllərində daşnaklar Qafqazı qan çanağına döndərmişdilər. Sovetlərin ilk dövründə də daşnaklar tez bir zamanda bolşeviklərə qoşularaq bolşevizmdən də çox yaxşı faydalandılar. Sovet hakimiyyəti yeni qurulanda isə öz əvvəlki fikirlərini bir tərəfə qoyub, bolşeviklərin sözünü deməyə başladılar. Ermənistan Sovet Sosialist Respublikası yaratdılar, əvvəllər onlara verilən torpaqları iki-üç qat artırdılar. Sovet dövrünün ilk illərində erməni tarixçisi, hərbçisi, siyasətçisi Koçazluni bir əsər yazdı ki, artıq "Daşnaksütyun"a ehtiyac yoxdur.



*"Ermənilər sürgün olunmayıb, deportasiyaya məruz qalmayıblar, yazdıqları tamamilə uydurmadır"*

Ermənilərin yeni iddialarına gəlincə, qeyd edim ki, bu müəlliflər bolşevik dövründə ermənilərə yaradılan hərtərəfli şəraiti, imkanları nankorcasına inkar edirlər. Ermənistan dövlətini yaradan, ermənilərə hər cür güzəştlər edən SSRİ dövlətini də pisləyirlər, onun əleyhinə danışırlar. Burada da erməni nankorluğu, erməni xisləti özünü göstərir. Halbuki, ermənilərə yaradılan şərait heç bir xalqa yaradılmamışdı. Ermənilər deportasiya edilən xalq yox, deportasiya edən xalqdır. 1948-1953-cü illərdə Ermənistan rəhbərliyinin SSRİ dövlət rəhbərliyinə müraciətinə əsasən, SSRİ Nazirlər Sovetinin qərarı ilə Ermənistan ərazisindən yerli azərbaycanlılar deportasiya olundular. Həmin dövrdə 200 minə yaxın azərbaycanlı deportasiya edildi, öz ata-baba yurdundan qovuldu. Bunun adını iqtisadi siyasət qoymuşdular, halbuki, onun adı etnik təmizləmə siyasəti idi. Bu, mənfur siyasət idi, bununla Azərbaycan xalqına böyük divan tutdular. Onlar qeyri-uyğun şəraitdə yerləşdirilmişdilər və bu da onları məhv olmaq təhlükəsilə üz-üzə qoyurdu. Sonrakı mərhələdə onların çox az hissəsinə öz ata yurduna qayıtmaq qismət oldu. 1988-ci ildə Ermənistandan azərbaycanlıları son nəfərinə qədər deportasiya edən Ermənistan və ermənilərin indi durub özlərinin "deportasiya"sından danışması çox gülüncdür. Çünki həmin dövrdə ermənilər deportasiya olunmayıblar. Ermənilər sürgün olunmayıb, deportasiyaya məruz qalmayıblar, yazdıqları tamamilə uydurmadır. O vaxt Stalin tərəfindən sürgün olunanlar Azərbaycan və Gürcüstanın Borçalı bölgəsindən olanlar idilər. Onları vəhşiliklə, heyvan daşınan vaqonlara qoyub Sibir, Qazaxıstan çöllərinə apardılar".

Q.Hacıyevin fikrincə, ermənilər görürlər ki, keçmiş SSRİ ərazisində yaşayan xalqlar həqiqətən də məruz qaldıqları repressiyalardan yazırlar, onlar da "biz də varıq" deyib axına qoşulmaq istəyirlər. Onun sözlərinə görə, elə bir məsələ yoxdur ki, ermənilər onunla bağlı hər hansı bir uydurma yaratmasınlar. "Onların yazdıqları tamam yalandır. Ermənilər özlərinin və yezidi kürdlərin deportasiya edildiklərini yalandan yazırlar. Stalin repressiyası dövründə bütün xalqlar repressiyaya məruz qaldıqları halda, ermənilər keçmiş SSRİ rəhbərliyinin ayaqlarına döşənib onların xeyrinə casusluq etdilər, başqa xalqları güdaza verdilər, amma özlərini repressiyadan xilas etdilər, geniş imkanlar qazandılar. Beləliklə, ermənilər indən sonra çox yalan, cəfəngiyyatlar uyduracaqlar. Amma hamısı, təbii ki, yalandır, qondarmadır" - deyə Q.Hacıyev vurğuladı.

***İradə SARIYEVA***

# Sənaye inqilabı üzrə regional mərkəz statusu Azərbaycana fərqli nə verəcək...

**Prezident İlham Əliyev "Microsoft" şirkətinin təşəbbüsü ilə şirkətin vitse-prezidenti Filip Roq, Mərkəzi və Şərqi Avropa bölgəsinin korporativ əlaqələr və hüquqi məsələlər üzrə rəhbəri Nanna-Luize Linde və "Microsoft" şirkətinin digər nümayəndələri ilə keçirilən videokonfrans zamanı deyib ki, Azərbaycan artıq sənaye inqilabı üzrə regional mərkəzə çevrilir:**

"Bu dəfə Davos İqtisadi Forumu zamanı cənab Borge Brende və mən Davosun Dördüncü Sənaye İnqilabı üzrə Regional Mərkəzinin Bakıda yaradılması ilə bağlı sənədi imzaladıq. Beləliklə, bu mərkəz nəinki təkcə Azərbaycanı, region ölkələrini də əhatə edəcək. Buna görə düşünürəm ki, bizim üçün daha da irəliləmək və sizinlə innovasiya mərkəzi üzərində çalışmaq təbii olardı. Bizim əsas strategiyamız, sizin də bildiyiniz kimi, karbohidrogen ehtiyatlarından asılılığı azaltmaq və innovasiyalar, yeni texnologiyalar və müasir idarəçilik əsasında dayanıqlı inkişafa nail olmaqdır. Buna görə düşünürəm ki, bu məsələ üzərində birgə çalışmağımız əməkdaşlığımızı gücləndirə bilər. Bu videobağlantıya görə təşəkkür edirəm. Bu, 2018-ci ildə Bakıda keçirilmiş görüşümüzdən sonra görülmüş işlərə nəzər salmaq və gələcək addımları planlaşdırmaq üçün yaxşı imkandır. Düşünürəm, artıq 15 ildən çoxdur ki, "Microsoft" Azərbaycanda fəaliyyətə başlayandan bu yana davam edən tərəfdaşlığın böyük potensialı və böyük gələcəyi var. Biz qarşıdakı uzun illərdə tərəfdaş olacağıq. Bir daha təşəkkür edirəm. Sizi görməyə məmnun oldum. Sizə uğurlar arzulayıram. Pandemiyadan sonra sizi Bakıda görməyə ümid edirəm".

Sənaye inqlabı üzrə regional mərkəz statusu Azərbaycana fərqli nə verə bilər?

Beynəxlaq qiymətləndirmə üzrə ekspert, iqtisadçı Asif İbrahimov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, dördüncü sənaye inqlabı dünyanın iqtisadi xəritəsinin yenidən qurulması deməkdir:"Bu, nəticədə bir çox şirkətlərin sıradan çıxması, əl dəyişdirilməsi və yeni oyunçuların meydanda görünəcəyi anlamına gəlir. Xüsusilə də burada innovativ texnologiyaların tətbiqi, İKT sistemlərinin daha da zənginləşdirilməsi baxımından əhəmiyyətə malik olacaq. Buna uyğun bir regional mərkəzin Azərbaycanda yaradılması ölkəmizə böyük töhvələr verə bilər. Azərbaycan hazırda uğurlu inkişaf yolu keçir. MDB ölkələri sırasında İKT-nin inkişaf reytinqinə görə ön sıralardan birini tutur. Dünya ölkələri arasında 65-ci nəticəmiz də qənaətbəxş sayıla bilər. Yeni mərkəzin bizə verə biləcəyi faydalar çoxdu. Xüsusilə də bir çox sahələrdə yeni texnologiyalar tətbiq ediləcək. Ortaya yeni idarəçilik metodları çıxacaq. Texnologiyaların tətbiqi ilə təhsil sistemi inkişaf edəcək.

***Asif İbrahimov:** "Müasir dünya ilə ayaqlaşmaq üçün bir çox ölkə məcbur qalacaq ki, investisiyalar yatırsın, infrastrukturu təkmilləşdirsin"*



Xüsusilə də təhsildə texnoloji sahənin inkişafına zəmin yaranacaq. Azərbaycana daha əvvəl az tətbiq edilən İKT standartları üzrə beynəlxalq təhlükəsizlik standartları, məsələn İSO-27001, İSO-27002 kimi standartlar məcburi tətbiq ediləcək. Müasir dünya ilə ayaqlaşmaq üçün bir çox ölkə məcbur qalacaq ki, investisiyalar yatırsın, infrastrukturu təkmilləşdirsin. Bu da ölkəmizdə yeni iş yerlərinin açılmasını stimullaşdıracaq. İnfrastrukturun təkmilləşdirilməsi istiqamətində yaradılacaq iş yerləri daha gəlirli sahələri əhatə edəcək. Bir sözlə, ölkəmiz üçün çox böyük uğur sayıla blər".

*Məhəmmədəli QƏRİBLİ*

# Koronavirusa yoluxma səviyyəsində Yasamalın davamlı və ziyanlı "liderliyi" - səbəblər...

**Son həftələr ölkəmizdə koronavirusa yoluxanların sayında ciddi artım müşahidə edilir. Bu hal xüsusən də ölkəmizdə mövcud olan karantin rejiminin yumşaldılmasından sonra baş verir. Yumşaldılma prosesinə qədər virusa yoluxanların sayı elə də böyük deyildi.**




İndi isə vəziyyət xeyli dərəcədə mənfiyə doğru dəyişib. Yoluxma sayının artmasının əsas səbəbi vətəndaş məsuliyyətsizliyidir.

Koronavirusa yoluxmanın ən çox hansı ərazilərdə qeydə alındığı açıqlanıb. Bildirilir ki, Bakı üzrə koronavirusa yoluxma ən çox Yasamalda qeydə alınıb. Məlumat üçün bildirək ki, Yasamalda virusa yoluxma 12,7% olub. Xətai rayonunda da yoluxma artaraq 12,2 faizə çatıb.

Qeyd edək ki, sonuncu statistikaya qədər Bakı şəhərində koronavirusa yoluxma ən çox Sabunçu rayonunda qeydə alınıb. Ancaq son günlər virusa yoluxanlar arasında Yasamal sakinləri üstünlük təşkil edirlər

Bakının Yasamal rayonunda koronavirusa yoluxmanın nə səbəbdən üstünlük təşkil etməsini öyrəmək məqsədilə sosioloq Aytəkin Kamranqızına müraciət etdik.

***Aytəkin Kamranqızı:** "Virusa yoluxma sayının artmasının səbəbi insanların sağlamlıqlarına məsuliyyətsiz yanaşmasıdır"*

A.Kamranqızı bizimlə söhbətində qeyd etdi ki, virusa yoluxma sayının artmasının səbəbi insanların sağlamlıqlarına məsuliyyətsiz yanaşmasıdır: "Son bir ayda yoluxma sayında artım davam etməkdədir, son olaraq 350-dən çox yoluxma qeydə alınıb. Bu bir həyəcan təbilidir ki, ay vətəndaş, məsuliyyətini dərk et, sosial məsafə gözlə, maska tax, gigiyenanla məşğul ol, əks təqdirdə yoluxmanın miqyası daha da artacaq".

Sosioloq onu da ələvə etdi ki, Bakı şəhəri üzrə koronavirusa yoluxmanın ən çox Yasamal rayonunda qeydə alınmasının səbəbi həmin ərazidə yaşayan sakinlərin təhlükəsizlik tədbirlərinə riayət etməməsidir. İnsanlar adıçəkilən virusun varlığına inanmaq istəmirlər. Özləri və ya doğmaları koronavirusa yoluxanda isə çox gec olur. Bu səbəbdən də insanlar tibbi maska taxmalı, sosial məsafə saxlamalı, təmizlik qaydalarına xüsusi riayət etməlidirlər.

*"...həmin ərazidə yaşayan sakinlərin təhlükəsizlik tədbirlərinə riayət etməməsidir"*

Həmsöhbətimizin sözlərinə görə, bu gün ölkəmizdə koronavirus pandemiyasının bu şəkildə yayılmasında məsuliyyəti vətəndaşlar özləri daşıyırlar. Onların səhlənkarlığı, biganəliyi nəticəsində biz fəlakət astanasına yaxınlaşırıq.

*Günel CƏLİLOVA*

**Dünya neft bazarında qiymətlər hələ da tam şəkildə sabit hala gələ bilmir. Müxtəlif səbəblər, o cümlədən spekulyativ amillər üzündən neft qiyməti, demək olar ki, hər gün dəyişir. Təbii ki, bu durum hasilatçı ölkələrin gəlirlərinə də mənfi istiqamətdə təsir edir.**

# Azərbaycanın azalan neft gəlirlərini artan qaz pulları kompensasiya etməyə başladı

Indi ən böyük hasilatçıların durumuna nəzər salmaqla da bunun şahidi olmaq mümkündür.

Neft bazarında hadisələrin inkişaf axarı hasilatçı ölkə kimi Azərbaycanda da diqqətlə izlənir. Bakı bu bazarda qiymət sabitliyində ən yaxından iştirak edən əsas tərəflərdən biridir. Amma o da faktdır ki, proseslər burada təkcə Azərbaycandan asılı deyil. Məhz bu səbəbdən Azərbaycan azalan neft gəlirlərinin kompensasiyası üçün indidən müəyyən qabaqlayıcı addımlar atır. Məsələn, qeyri-neft sektorunun dinamik inkişafı və bu istiqamətdə artan istehsal artıq öz müsbət nəticələrini verir. Azərbaycanın qeyd edilən səpkidə daha bir üstünlüyü isə həm də təbii qaz ixracatçısı kimi statusunu gedərək gücləndirməsidir. Qeyd edək ki, ölkənin təbii qaz satışından daxil olan gəlirləri də artmaqda davam edir. Məlumat üçün bildirək ki, bu ilin ilk 5 ayında ölkədən 5 milyard 461,1 milyon kubmetr təbii qaz ixrac edilib. İxrac edilən təbii qazın dəyəri isə 1 milyard 38,4 milyon dollar olub. Xatırladaq ki, ötən ilin eyni dövründə ölkədən 4 milyard 903,3 milyon kubmetr təbii qaz ixrac edilmiş, həmin ixracın dəyəri 871 milyon 621 min dollar olmuşdu. Rəqəmlərin müqayisəsindən görünür ki, təbii qaz satışından əldə edilən gəlirin miqdarı artır. Cari ilin sonunda Azərbaycan qazının Avropa bazarlarına çıxışı da nəzərə alınsa, bu məhsulun satışından Azərbaycanın daha çox gəlir əldə etməsini də proqnozlaşdırmaq olar. Bunu Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun Beynəlxalq Enerji Siyasəti və Diplomatiyası İnstitutunun direktor müavini İqbal Quliyev də xüsusi olaraq vurğulayır: "Avropada uzunmüddətli müqavilələrin başa çatdırılması da Azərbaycan kimi oyunçulara yeni imkanlar qazandıracaq. Belə ki,




Azərbaycan qazı Avropa bazarında orta müddət ərzində yaxşı perspektivə malikdir. Bu ilin mart ayında Türkiyə bazarının 24 faizini təmin edərək bu ölkəyə qaz tədarükü sarıdan birinci yer tutan Azərbaycan iki il bundan əvvəl TANAP vasitəsilə qaz nəqlinə başlayaraq ötən müddət ərzində 5,6 milyard kubmetr qaz ixrac etdi. Ötürmə gücü 16 milyard kubmetr olan TANAP üzərindən gələcəkdə 31 milyard kubmetr qaz ötürmək nəzərdə tutulur". Rusiyalı ekspert TAP-ın Adriatik dənizi dibindən keçən 105 kilometrlik hissəsinin başa çatdığını da xatırladıb:"HəmTAP, həm də TANAP Azərbaycanın "Şahdəniz-2" yatağından təbii qazın ixrac ediləcəyi "Cənub Qaz Dəhlizi"nin tərkib hissələridir. Yeni qaz kəmərlərinin də istismara qəbul edilməsini nəzərə alsaq, Azərbaycan yaxın perspektivdə Avropa qaz bazarındakı mövqeyini daha da gücləndirə bilər".

Hazırda Azərbaycan qazı əsas etibarı ilə TANAP kəməri ilə ixrac edilir. "Şahdəniz-2" yatağından çıxarılan qazı Türkiyəyə nəql edən TANAP Türkiyə-Gürcüstan sərhədində Cənubi Qafqaz Boru Kəmərinə qoşulub, Türkiyə-Yunanıstan sərhədində isə TAP qaz boru kəmərinə birləşib. Avropa İttifaqı üçün prioritet enerji layihələrindən biri olan və "Cənub Qaz Dəhlizi"nin birləşdirici halqasını təşkil edən TANAP-ın TAP-la birləşməsi Azərbaycan qazının Avropaya ixracında mühüm məqam sayılır. Artıq tezliklə TANAP-la nəql edilən Azərbaycan qazının həcmi 6 milyard kubmetrə çatacaq. Bundan sonra artan ixrac TAP-a yönləndiriləcək. Azərbaycan təbii qazını Avropaya nəql edəcək və TANAP-a birləşdirilən TAP kəmərinə sınaq məqsədilə 21,4 milyon kubmetr qaz vurulub. Kəmərin mövcud ötürücülük qabiliyyəti hazırda 16 milyard kubmetrdir, amma sonradan bunun 23 milyard, daha sonra isə 31 milyard kubmetrə çatdırılması nəzərdə tutulur. İlkin mərhələdə TANAP kəməri ilə nəql olunacaq 16 milyard kubmetr Azərbaycan qazının 10 milyard kubmetri Avropaya, 6 milyard kubmetri isə Türkiyəyə satılacaq. Bu hal Azərbaycanın qaz gəlirlərini artırmaqla yanaşı, ölkəmizin Avropa enerji bazarında da mövqelərinin güclənməsinə rəvac verəcək. Enerji məsələləri üzrə ekspert Müslüm İbrahimov da xurğulayır ki, Azərbaycan həyata keçirdiyi böyük enerji layihələri ilə beynəlxalq aləmdə özünü tanıda bilib: "Azərbaycan Cənubi Qafqaz regionunun geosiyasi və iqtisadi konturlarının müəyyən edilməsinə təsir edə bilir. Bu layihələr Azərbaycanın böyük dövlətlərlə sıx əməkdaşlıqlarının qurulmasına şərait yaradıb. Layihələr ölkəmizin dünya iqtisadiyyatına sürətli inteqrasiyasını təmin edib. "Cənub Qaz Dəhlizi" layihəsi Azərbaycanın mövqeyini gücləndirib. Bu layihələr Azərbaycanı geoiqtisadi məkanda söz sahibinə çevirib. Azərbaycan belə layihələrdə iştirak etməklə beynəlxalq arenada həm siyasi, həm də iqtisadi nüfuzunu yüksəldir".

Burada bir məsələni də qeyd edək ki, Azərbaycan qaz ixracını artırmaqla yanaşı, ölkədən kənarda neft-kimya, neft emalı, boru kəməri və mayeləşdirilmiş təbii qaz layihələrini genişləndirməyə də davam edir. Ölkədə və ondan kənarda qaz emalı və neft-kimya zavodlarının istismara verilməsi, qazla işləyən yeni sənayenin yaradılması fəaliyyətin digər mühüm tərəflərini təşkil edir. Türkiyədə STAR və "Petkim" kimi zavodlar bunların real təsdiqidir.

**Təbii qazın istehsal payının artırılması ilə yanaşı, neft və qaz emalının, kimya məhsullarının təkmilləşdirilməsi Azərbaycanda daha sabit gəlir və davamlı inkişaf üçün şərait yaradır. Qarşıdakı dönəmdə isə daha perspektivli "Şahdəniz-3" layihəsi də həyata keçiriləcək. "Şahdəniz-3" dənizdə yerləşən yatağın işlənilməsinin ən böyük mərhələsidir. Bütün bunlar həm də azalan neft gəlirlərini uğurla kompensasiya etməyə imkan verir.**

***Ramil QULİYEV***

**Cari ilin martında həcmi yenidən artan problemli kreditlərin miqdarında yenidən azalma müşahidə olunur. Amma bütün bunların kökündə duran başlıca amil, ötən il olduğu kimi, bu il də dövlətin prosesə müdaxiləsidir. Banklar özləri isə yeni problemli kreditlərin yaranmasını önləmək üçün hələ də effektiv fəaliyyət göstərmir.**

# Banklar yenə etimadı doğrultmur - problemli kreditlərdə cəmi 18 faiz azalma, o da dövlətin müdaxiləsi ilə...

Bu barədə danışmazdan öncə qeyd edək ki, Mərkəzi Bankın təqdim etdiyi məlumata görə, mayın 1-nə ölkənin bank və digər kredit təşkilatlarının kredit portfeli milli valyuta ekvivalentində 15 milyard 146,8 milyon manat olub. Ümumi kredit portfelinin 12 milyard 449,4 milyon manatı və ya 82,2 faizi uzunmüddətli kreditlərin payına düşüb. Kreditlərin 97,3 faizi banklar, 2,7 faizi isə bank olmayan kredit təşkilatları və kredit ittifaqları tərəfindən verilib. Ödəmə vaxtı keçmiş kreditlərin məbləği 1 milyard 232,4 milyon manat olub və ümumi kredit portfelinin 8,1 faizini təşkil edib. Rəqəmlərin təhlili göstərir ki, martla müqayisədə apreldə ödəmə vaxtı keçmiş kreditlərin cəmi kredit qoyuluşlarında xüsusi çəkisi 8,9%-dən 8,1%-ə geriləyib. Eyni zamanda, apreldə cəmi kredit qoyuluşları 490,6 milyon manat azalaraq 15 milyard 146,8 milyon manata düşüb. Mərkəzi Bank bildirir ki, kredit qoyuluşlarında azalma aprel ayında lisenziyası ləğv edilmiş banklarla əlaqədardır. Problemli kreditlər isə ilin əvvəlinə nisbətən 3,2%, son 1 ildə isə 18,05% azalıb. Aprelin sonuna, yuxarıda qeyd olunduğu kimi, vaxtı keçmiş kreditlərin ümumi kredit portfelində xüsusi çəkisi 8,1% təşkil edib. Bu nisbət martın sonuna 8,9%, ötən ilin sonuna 8,3%, ötən il aprelin sonuna isə 11,6% olub. Son dövrlərdə problemli kreditlərin azalması isə əsasən dövlətin prosesə müdaxiləsi nəticəsində baş verib.

Xatırladaq ki, ötən ilin fevralında fiziki şəxslərin xarici valyutalarda problemli kreditlərinin həllinə dair dövlət tərəfindən mühüm addımlar atıldı. Fiziki şəxslərin xarici valyutada 10 min ABŞ dollarınadək və ya milli valyutada 17 min manatadək olan əsas kredit borclarının həllinə dövlət 1 milyard manatdan çox vəsait ayırdı. Eyni zamanda, bankların valyuta mövqeyinin pisləşməsinin qarşısını almaq məqsədilə ayrılmış kreditin hesabına banklara, onların müraciəti əsasında 215 milyon dollar dəyərinədək xarici valyutada ifadə olunmuş, illik faiz dərəcəsi 0,5 faiz olmaqla qiymətli kağızların verilməsi təmin edildi. Ümumilikdə 800 min nəfərdən çox insan bu prosesdən faydalandı. Bu proses bankları problemli kreditlər bataqlığından da xilas etdi.

Bu il özünü göstərən koronavirus pandemiyası şəraitində də dövlət yenə bankları darda qoymadı. Azərbaycanda koronavirus infeksiyasının yaratdığı yeni şəraitdə hökumət bank kreditlərinin ödənilməsi məsələsinə dəstək verdi. Pandemiya və qlobal şokların təsiri altında ödəniş qabiliyyətində problemlər yaranmasını hökumət nəzərə aldı. Bu problemləri aradan qaldırmaq üçün dövlət ilk mərhələdə 1 milyard manatlıq paket təqdim etdi. Burada daha çox sahibkarlara dəstək verildi. Xüsusən də kredit tarixçələri normal olan, yeni kreditləri həmişə vaxtında ödəyən və yalnız qlobal vəziyyətlə əlaqədar ödəniş problemləri yaranan sahibkarlar bundan faydalandılar. Artıq məlumdur ki, İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondu iş adamlarınım kredit faizi yükünün təxminən 10%-lik hissəsini öz üzərinə götürüb. Bu da əhəmiyyətli hissədir. Çünki bu gün ölkədə biznes kreditlərinin orta illik faiz dərəcəsi 14%-dir. Burada bank sektorunun ayaqda qalması məsələsinin də çox vacib olduğunu dövlət nəzərə aldı. Bunlar yenidən problemli kreditlər burulğanı yaratmağın qarşısının alınmasında vacib rol oynadı. Bir tərəfdən sahibkarın və vətəndaşın marağı qorundu, digər tərəfdən isə bank sektorunun dayanıqlığına dəstək verildi.

Bundan başqa, yeni götürülmüş kreditlər üçün 500 milyon manatlıq dəstək paketi də burada önəmli rol oynadı. Bütün bunlar həm problemli kreditlərin miqdarının azalmasına, həm də bank sektorunun bundan az əziyyət çəkməsinə gətirib çıxardı. Amma bunların qarşılığında banklar tərəfindən hələ də indiki vəziyyətə uyğun addımlar atılmır. Məsələn, istehlak kreditlərinin xüsusi çəkisi ümumi kredit portfelində yenə 50 faizə çatır. Kredit faizləri hələ də yüksəkdir. Depozit və kredit faizləri arasında da fərq böyük olaraq qalır. Mərkəzi Bankın statistikasına əsasən, may ayının 1-nə manatla depozit və əmanətlər üzrə orta faiz dərəcəsi 8,73%, xarici valyuta ilə 1,63% təşkil edib. Ötən ayla müqayisədə manatla depozit və əmanətlər üzrə orta faiz dərəcəsi 0,22 faiz bəndi, xarici valyutada depozit və əmanətlər üzrə orta faiz dərəcəsi isə 0,12 faiz bəndi azalıb. Məlumat üçün onu da qeyd edək ki, cəlb edilmiş vəsaitlərin 3 milyard 481 milyon manatı milli valyutada olan əmanətlərdir və orta faiz dərəcəsi 6% təşkil edir. 4 milyard 277 milyon manat həcmində əmanətlər isə xarici valyutadadır və onun orta faiz dərəcəsi 1,4 faizdir. Ekspertlər hesab edir ki, əmanətlərdə faiz azaldıqca, əhalinin banklara depozit qoyması daha da azalacaq.




**Halbuki, yuxarıda qeyd olunduğu kimi, kredit faizləri azalmır. Milli valyutada kreditlər üzrə faiz dərəcələri orta hesabla 24 faizədək, bəzi banklarda 29 faizədək yüksəlir. Xarici valyutada kredit faizləri 15 faiz ətrafında dəyişir. Bu ondan xəbər verir ki, əmanət faizləri ilə kredit faizləri arasında nəinki faiz, hətta bir neçə dəfə fərq var. Bu hal bir daha təsdiq edir ki, banklar onlara edilən dövlət yardımından belə lazimi nəticələr çıxarmayıb təhlükəli kredit siyasəti yürütməkdə davam edir. Bu isə indiki pandemiya şəraitində qəbuledilməzdir.**

***Nahid SALAYEV***

**"Ön Asiyada Türk-müsəlman dövlətlərinin inkişaf etmiş sivil iqtisadi-siyasi və maddi-mədəni səviyyəsinə (mərhələsinə), eləcə də əhalisinə qarşı xristian dünyasının (əsasən Qərbi Avropanın) birləşmiş hərbi-cəngavər qüvvələri tərəfindən amansız qətliam-soyqırım faciələrinin törədilməsi xahişi ilə Bizans imperatoru I Aleksey Kamnin (1056-1118) Roma papası II Urbana rəsmi müraciətindən:**

# Dünya sivilizasiyasının "kor bağırsağı" - "erməni səhifəsi"

**(II məqalə)**

- Biz birlikdə yeni yaranan xristian dini yayılan ərazilərdə yad dildə danışanlardan öz hakimiyyətimizi qorumalıyıq".

Hay kilsəsinin təşkilatçılı ilə ibtidai hay sürüsünün (şüurunun) müsəlman-türk dünyasına qarşı yönəlik soyqırım (düşmənçilik) siyasətinin ideoloji istiqamətləri, yüzilliklər ərzində olduğu kimi, son illərdə də Qriqor Bəyləryanın "Ermənistan dünyası və ona bitişik regionların atlası" kitabının I cildində (2020), eləcə də digər müəlliflərin əsərlərində (Moskva şəhəri, Provaslav müqəddəs Tixonov Humanitar Universitetinin "Xəbərlər" toplusunda (2016-cı il, III hissə, 4 (49)-cü nömrə, səhifə 9-23) tarix elmləri doktoru V.A.Arutyunova-Fidanyanın "Ermənistanın xristianlaşdırılması sivilizasiya yolunda" məqaləsi; İrəvan şəhərində çap edilən "Ermənistan Respublikası" qəzetinin baş redaktoru V.M.Aloyanın "Erməni sivilizasiyasının Van, Urmiya və Göyçə gölləri "üçbucağında" təşəkkül tapması " barədə (2018) "Qədim Ermənistan" (e.ə. XIII əsrdən eramızın VI əsrinədək) yazısı...) kəskinliyi ilə ifadə olunur.

Daha sonra, ibtidai (kozəhin) hay sürüsünün başqa nümayəndəsi, London şəhərində erməni elmi-mədəni təşkilatının ("Armenian İnstitute") əsasını qoyan və özünü "xəritəşünas" adlandıran Ermənistan EA-nın fəxri doktoru Ruben Qaliçyan isə ("Ermənistan dünya kartoqrafiyasında" (2005, 2015); "Tarixin mifləşdirilməsi" (2009); "Ermənistanın tarixi xəritələri" (2009); "Azərbaycanın tarixi-coğrafi saxtakarlığı" (2013)... uydurma "kitabları"nın müəllifi) etno-morfoloji hay həyasızlığı ilə bildirib ki, biz dünya sivilizasiyasının yeganə mərkəzi kimi 2600 il əvvəlki adımızı olduğu kimi saxlamışıq ("erməni dövləti" kimi).

Amma nədənsə, yuxarıda adı çəkilən V.M.Aloyanın yazısına əlavə edilmiş e.ə. IX-VI əsrlərə aid xəritədə "erməni" toponimi yox, "Urartu" sözü yazılıb.

"Erməni dağlıq yaylası" kimi saxta, uydurma toponim yaradan haylar qədim Urartu dövlətinin (e.ə. II əsrdən eramızın VI əsrədək) tarixi-coğrafi ərazisini "qədim erməni sivilizasiyasının" mərkəzi olaraq dünyaya tanıtmağa cəhd göstəriblər. Urartu (Biayni) dövlətinin ərazisinə e.ə. II minillikdə Şərqi Afrikadan və Balkan yarımadasının cənub-şərqindən (əsasən Frakyadan) miqrasiya etmiş protohay tiqran, tiqr, tiqrau, nairi qəbilə-tayfa üzvlərinin etnogenezisinə yerli, dominant xalqların (şumerlərin, akkadların, ərəblərin, elamların...) təsiri, sonrakı mərhələdə isə hay sürüsünün etno-fizioloji formalaşmasında da böyük rolu olub.

Məhz sovet-rus tarixçisi və şərqşünas alimi, tarix elmləri doktoru İ.M.Dyakonov (1915-1999) "Qədim erməni xalqı" əsərində (1968) göstərir ki, müasir ermənilərin etno-morfo genezisində e.ə. II minilliyin sonu-I minilliyin əvvəlində (e.ə. 1 Frakyadan Şərqə doğru (Kiçik Asiyanın doğu hüdudlarına, Fərat çayının yuxarı axarlarına) yerli tayfalarla yanaşı, hətta miqrasiya etmiş myus tayfasının da təsiri olub və onlar sonrakı mərhələdə Urartu dövləti ərazisində Arme vilayətində Alzi cəmiyyəti yaradıblar.

1982-ci ildə Moskva şəhərindəki "Ali məktəb" nəşriyyatında Moskva Dövlət Universitetinin professorları, tarix elmləri doktorları Y.V.Bromleyin (1921-1990) və Q.E.Markovun (1923-2018) redaksiyası ilə işıq üzü görən "Etnoqrafiya" kitabının "Qərbi Asiya" fəslində (səhifə 61-77) qeyd edilir ki, Babil qədim sivilizasiya ocağı İkiçayarası ərazilərini, Dəclə və Fərat çaylarının yuxarı hövzələrini, Şərqi Aralıq dənizi sahillərini əhatə edən dövlətlər (Finikiya, Şumer, Babil, Akkad...) və xalqlar (finikiyalılar, şumerlər, ərəblər, yəhudilər, aramilər...) tərəfindən yaradılıb. Yəni e.ə. III minilliyin ortalarında semitdilli xalqlar yazılı abidələrinin izlərini qoyublar, akkadlar, şumerlər Babil mədəniyyətinin (təkamül mərhələsinin) yaradıcıları olub, qədim yəhudilər "Bibliya"nı yazıb, finikiyalılar ilk əlifbalarını tərtib edib (sonrakı dövrlərdə ərəb, yunan, latın, kiril əlifbalarının yaranmasında istifadə olunub), arami dili ("Şərqin latın dili") geniş yayılıb.

Həmin əsərin 64-cü səhifəsində dəyərli elmi nəticə barədə bildirilib ki, Qərbi Asiya (İran dağlıq yaylası, Dəclə-Fərat çaylarının yuxarı hövzələri, Anadolu yaylasının şərq hissəsi) xalqlarının (Hind-Avropa dil ailəsinə aid, semit dil qrupuna mənsub), əksəriyyətinin antropoloji, etno-morfoloji əlamətlərinin formalaşmasında (assimlyasiya prosesində) yerli irqlərlə yanaşı, Afrika qitəsindən köç etmiş qəbilələrin, tayfaların da təsiri olub.

Qatı hay xislətinə uyğun məkrli niyyətlərinin ardıcıl davamı sırasında saxta, uydurma məlumatlarla dolu müxtəlif çar materialları dünyanın kütləvi informasiya mənbələrini dövrü olaraq bürüməkdədir. Adı çəkilən, eləcə də digər hay imzalı nəşrlərdə yer alan infor-



masiyaların reallığa uyğunsuzluğu (guya "hayların qədim dünya sivilizasiyasının mərkəzində olması və ayrı-ayrı ölkələrə bu ocaqdan paylanması" barədə uydurmalarının) digər nəşrlərdə, yazılarda, bir-birini təkzib edən fikirlərlə yanaşı, müsəlman-türk dünyasına (xalqlarına) qarşı dözümsüzlük, barışmazlıq və kin-küdurət də geniş yer tutur. Bu baxımdan İrəvan şəhərinin mərkəzində 2002-ci ildən ekspert-analitik mərkəz kimi fəaliyyət göstərən müstəqil Qafqaz İnstitutunun Henrix Böll (1917-1985, Nobel mükafatı laureatı (1972) alman yazıçısının adına olan) və Analitik mərkəzlərə dəstək Fondlarının maliyyə yardımı ilə 2010-cu ilin dekabr-2011-ci ilin aprel ayları ərzində tədqiq edilən layihə mövzularına nəzər yetirmək kifayətdir. Həmin nəticələr (Qrant Mikaelyanın rəhbərliyi ilə tədqiqatçılar Ani Arutyunyanın, Conni Melikyanın və Luiza Ayvazyanın Türkiyə, Azərbaycan, İran, Gürcüstan, Rusiya və Ermənistan haqqında "analitik" yazıları, 2014-2019-cu illərdə arxeoloji tədqiqatlar aparmış Ermənistan EA-nın Arxeologiya və etnoqrafiya institutunun professoru Boris Qasparyanın "erməni sivilizasiyası" barədə mülahizələri) 2011-ci ilin iyun ayında "Ermənistanda milli müzakirələr" adlı topluda toplanıb. Toplunun 9-cu səhifəsində "Türkiyənin mövcudluğa haqqı yoxdur", 12-ci səhifədə "Azərbaycanın mövcudluğa haqqı yoxdur", 32-ci səhifədə isə "Ermənistan-qədim sivilizasiya"... başlıqlı yazıların məzmununu şərh etməyə ehtiyac yoxdur, təkcə bir uydurma faktdan başqa:

"İrəvan şəhəri Romadan qədimdir, erməni sivilizasiyası Babil və Assuriya sivilizasiyası ilə eyni dövrə təsadüf edir".

Gözüqanlı hay kilsəsi və ibtidai hay sürüsünün "erməni sivilizasiyası" barədə uydurmalarına son dövrlərdə hay verən əcnəbilərdən ABŞ diplomatı (1984-cü ildən 2010-cu ilədək Bəhreyn, Belçika, İraq, Polşa, Səudiyyə Ərəbistanı, Rusiya Federasiyası və Ermənistanda səfir olub) Maykl Qfellerin ("Biz hamımız erməniyik" gen daşıyıcısı) və yaponiyalı sənətşünas, professor Kunito Naqaokanın (uydurma "mixi yazıları vasitəsilə hay əcdadlarını yada salan") da adlarını çəkmək olar.

Amma nədənsə, Moskva şəhərində 8 cildlik "Ümumdünya tarixi ensiklopediyası" silsiləsindən "OlmaMediaQrup" nəşriyyatında 2006-cı, "Drofa" nəşriyyatında 2008-ci illərdə çar edilmiş "Sivilizasiya mənbələri" kitabında "qədim erməni sivilizasiyası" barədə bir kəlmə də olsun yazılmır...

Və yaxud, mürtəce hay kilsəsi tərəfindən canfəşanlıqla dünyaya yayılan saxta "qədim erməni sivilizasiyası ocağı" kimi sərsəmləmələrin əsassızlığına sübutlardan biri də Rusiya Slavyanları Komitəsinin sədri, hərbi jurnalist-yazıçı N.İ.Kikeşevin (1946) "Avrasiya tarixi.Mənbələr.Fərziyyələr.Kəşflər" əsəri (2019) ola bilər.

Bəşər cəmiyyəti tarixinin təkamülü mərhələləri yaşanmış ictimai-iqtisadi və sosial-mədəni inkişaf dövrlərini birləşdirsə də, xüsusi və ayrıca yüksək inkişaf səviyyəsi ilə fərqlənən xalqların (dövlətlərin) bütün sahələrdə sivil-mədəni cəmiyyətləri bütövlükdə dünya iqtisadi-mədəni tərəqqisinin əsasını təşkil edir. Ona görə də həmin sivil cəmiyyətlərinin hüdudlarından kənarda yaranan cəmiyyətlər məhz sivilizasiya ocaqlarının təsiri ilə siyasi dövlət quruluşlarının, hərbi-strateji məqsədlərinin, iqtisadi-təsərrüfat sistemlərinin, dini və mədəni irs bölmələrinin təkmilləşdirilməsinə və inkişafına nail olublar (Mərkəzi Amerikada, And dağlarında, Göy Türk (Hun)- Saxa-Yaqut hövzəsində, Həbəş dağlıq yaylası və Nil çayı vadisində, İkiçayarası (Babil-Şumer-Akkad) və Anadolu yaylasında (Bizans-Türk), Roma-Yunan və Hind-Çin dövlətləri hüdudlarında).

Bu sırada eramızdan əvvəl IX-VIII minillikdən eramızın XVI əsrinədək davam etmiş dünya sivilizasiya ocaqlarından biri kimi Mərkəzi Amerika (Meksika, Honduras, Salvador, Qvatemala dövlətlərini əhatə edən "qızıl dərili mayyalılar" tərəfindən yaradılan Mayya mədəniyyəti) və And dağları (İnk sivil cəmiyyəti, Çavin, San-Aqustin, Qarakas, Naska, Moçika, Tiuaunako, Tayron, Çimu, Çibça siyasi-iqtisadi və mədəniyyət mərkəzləri) hövzəsi də xüsusilə əhəmiyyətlidir. Tarixi-coğrafi və arxeoloji məlumatlara görə, bu sivilizasiya ocaqlarının təşəkkül tapması eramızdan əvvəl XII-XI minilliklərdə "böyük köç"ə imza atan Göy Türklərin şimala doğru hərəkəti, indiki Yakutiyadan ("Yaqutlar ölkəsi"ndən), Anadır (Anadoğu) bərzəxindən keçməklə (indiki Berinq boğazı) Amerika qitəsinin ucqar şimalından cənuba doğru (15-16 min km məsafədə) yayılması ilə bağlı olub. Ona görə də qitənin kökənli xalqı kimi sonrakı hinduların ulu əcdadları Göy Türk-Yaqut soylulardan hesab edilir.

Eləcə də rus-sovet tarixşünaslığında əsas tədqiqat obyektlərindən biri olan, müasir Rusiya Federasiyasının hüdudlarındakı Yakutiyadan Skandinaviya yarımadasınadək geniş qütbətrafı hövzəni əhatə edən Arktika sivilizasiya ocağının təşəkkülü və inkişafı (eramızdan əvvəl XIV-VI minilliklərdə) da Göy-Ağ Türk soylarının adı ilə bağlıdır.

Bu barədə görkəmli rus alimi M.V.Lomonosovun (1711-1765) "Rus soykökünün qısa salnaməsi" (1760), "Rus tarixi barədə qeydlər" (2003), "Qədim Rusiya tarixi" (1766) nəşrlərində, Saxa-Yakutiya Respublikasının paytaxtı Yakutsk şəhərindəki Arktika Dövlət İncəsənət və Mədəniyyət İnstitutunun elmi-tədqiqat Qütbətrafı sivilizasiya Mərkəzinin elmi rəhbəri, sosial elmlər doktoru, dosent U.A.Vinokurovanın "Arktika qütbətrafı sivilizasiyası" (Novosibirsk şəhəri, 2016), "Sibirin müqəddəs yerlərinin etnik mənsubiyyəti" ("Mədəniyyət və sivilizasiya" toplusu, 2017, VII cild, səh. 533-545) əsərlərində ... Yakutiya-Arktika sivilizasiyasınn tarixi-arxeoloji və maddi-mədəniyyət aspektləri daha ətraflı təhlil edilir.

Göründüyü kimi, bəşər cəmiyyəti tarixində ayrı-ayrı ərazilərdə yaranmış antik və orta əsrlər dövrü sivilizasiya ocaqlarının mövcudluğundan xəbəri olmayan hay kilsəsinin və hay sürüsünün şüurunun yetərincə məlumatlandırılması üçün yuxarıda qeyd edilən qısa məlumat xülasəsi kifayət dərəcədə yetərli hesab oluna bilər.

Həmin dünya təşəkkül mərkəzlərinin ətraflı məlumatlarla şərhinə növbəti yazılarımızda yer veriləcək.

*Qismət YUNUSOĞLU*
*Bakı Dövlət Universitetinin müəllimi*

# Azərbaycan distant təhsil üzrə ən pis ssenarilərə indidən hazırlıq görməyə başlayıb...

## *İlqar Orucov: "Azərbaycanda təhsilin yeni formalarının ərsəyə gətirilməsi..."*




*"Ölkəmizin bu istiqamətdə görməyə başladığı işlərin böyük əhəmiyyətini qeyd etmək istəyirəm"*

**"...Gələcək planlarımıza gəlincə, bəlkə də bilirsiniz ki, hazırda biz rəqəmsal transformasiya üzrə hökumət strategiyası üzərində işləyirik. Ümidvarıq ki, bu məsələdə "Microsoft"la yaxşı əməkdaşlıq edə biləcəyik. Bu proqram növbəti 5 il üçün planlaşdırılır.**

Eyni zamanda, süni intellekt üzrə strategiyanın ətraflı işlənib hazırlanması ilə bağlı məsələlər də bizim gündəliyimizdədir. Kibertəhlükəsizlik hər zaman gündəlikdədir, çünki bu, bütün ölkələrin hazırlıqlı olmalı olduğu məsələdir. İndiyədək bizdə belə böyük hallar olmayıb, lakin heç kim sığortalanmayıb.

Ona görə də bu da bizim gələcəyimiz üçün prioritetlər sırasında qalır. Əlbəttə, mən icra olunmuş layihələrin siyahısına baxdım. Aramızdakı əməkdaşlıq çox təsirləndiricidir və əminəm ki, bu, qarşıdakı illərdə tərəfdaşlığımızı gücləndirəcək. Həmçinin, pandemiya ilə əlaqədar bu vəziyyət bizi məcbur edir ki, təhsil, distant təhsil məsələlərinə yeni bucaqdan baxaq. Baxmayaraq ki, mövcud vəziyyətə özümüzü uyğunlaşdırmaq üçün bizim çox vaxtımız olmadı, lakin müəyyən addımlar atılmışdır. Çünki bizim məktəb və universitetlərimiz mart ayından bəri bağlanıb. Biz sentyabrın 15-dən başlayacaq yeni tədris ilinə hazırlaşmalıyıq.

Həmin zaman pandemiya ilə bağlı vəziyyətin necə olacağını bilmirik, məktəb və universitetləri aça biləcəyimizi bilmirik, ona görə də biz ən pis ssenariyə hazırlıqlı olmalıyıq. Əgər problem davam edirsə və getdikcə pisləşirsə, o zaman biz bu barədə düşünməli olacağıq. Lakin indi bu barədə düşünmək lazımdır. Həmçinin, distant işlə bağlı məsələlər... Bu da ölkə üçün olduqca vacibdir. Təxminən bunlar bizim planlarımızda diqqətimizi cəmlədiyimiz sahələrdir".

Bunu Prezident İlham Əliyev "Microsoft" şirkətinin vitse-prezidenti Filip Roq, Mərkəzi və Şərqi Avropa bölgəsinin korporativ əlaqələr və hüquqi məsələlər üzrə rəhbəri Nanna-Luize Linde və "Microsoft" şirkətinin digər nümayəndələri ilə keçirilən videokonfrans zamanı deyib.

Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru İlqar Orucov "Bakı-Xəbər"ə bildirdi ki, Prezident İlham Əliyevlə sözügedən şirkətin rəhbərliyi arasında keçirilən videokonfrans olduqca vacib və aktual bir məsələ üzərində qurulub. "Azərbaycan dövləti ilə "Microsoft" şirkəti arasındakı bu görüş böyük əməkdaşlığı göstərir. Xüsusilə nəzərə almalıyıq ki, bu məsələdə ölkənin birinci şəxsi siyasi iradə ortaya qoyur. Bu məsələdə ölkə Prezidentinin mövqe ortaya qoyması Azərbaycan üçün həm indiki dövrdə, həm də postpandemiya dönəmində başlanan böyük bir mərhələnin əsasını qoyur. Bu mərhələ ondan ibarətdir ki, indiki dövr pandemiya ilə bağlı qeyri-müəyyəndir, heç bir səviyyədə təhlükənin nə zaman sovuşacağı məlum deyil, bununla bağlı proqnozlar vermək də hələ tezdir. Buna görə də biz hazırkı vəziyyətə uyğun elə qərarlar qəbul etməliyik ki, bu qərarlar həm indiki, həm də postpandemiya dövrü üçün Azərbaycanın itkilərinin minimuma endirilməsi ilə bağlı olsun. Cənab Prezident birmənalı olaraq bildirdi ki, biz ən çətin situasiyalara, ən pis ssenariyə hazırlıqlı olmalıyıq. Bu situasiyanın hansı səviyyəyə qədər çətin olacağını demək mümkün deyil, çünki pandemiya ilə bağlı vəziyyət qeyri-müəyyəndir. Ona görə də dünyanın İT texnologiyalar sahəsində ən nəhəng şirkəti olan "Microsoft" korporasiyası ilə artıq yeni dövrün çağırışlarına uyğun olaraq işlər görülməsi Azərbaycan Prezidentinin siyasətində innovasiyalara nə qədər yer verildiyinin təzahürüdür və eyni zamanda, ən çətin dövrlərdə belə Azərbaycan dövlətini, vətəndaşları vəziyyətdən itkisiz çıxarmaqla bağlı gördüyü böyük işlərin davamıdır. Bilirsiniz ki, artıq Təhsil Nazirliyi ilə "Microsoft" şirkəti arasında əməkdaşlıq qurulub və bu sahədə işlər çox yüksək səviyyədə gedir. Təsadüfi deyil ki, Azərbaycanda pandemiya dövründə "Virtual məktəb" platformasının ərsəyə gəlməsi məhz Təhsil Nazirliyi ilə "Microsoft" korporasiyasının əməkdaşlığının nəticəsidir.

Çox nəhəng, eyni zamanda da çox faydalı olan bir layihəni xeyli müddət sonra digər ölkələr də tətbiq etməyə başladılar. Əlbəttə, pandemiya bizi yeni və fərqli istiqamətlərdə strategiyamızı qurmağa sövq edir. Bu, eyni zamanda, təhsillə bağlı məsələlərdir. Hesab edirəm ki, biz çağırışlara hazır olmalıyıq. Pandemiya bitdikdən sonra da bizi, bütövlükdə, gələcəkdə nə gözlədiyindən heç kəs, heç bir dövlət sığortalanmayıb. Fikrimcə, ona görə də Azərbaycanda təhsilin yeni formalarının ərsəyə gətirilməsi, inkişaf etdirilməsi ilə bağlı ölkənin birinci şəxsinin söylədiyi fikirlər bizi bu istiqamətdə işlər görməyə sövq edir. Bu işləri tezləşdirmək, sürətləndirmək lazımdır. Bilirsiniz ki, distant təhsil artıq dünyada oturuşmuş təhsil növlərindən biridir. Məsafədən təhsil təhsilin ən doğru formalarından biridir. Ona görə də bu istiqamətdə qabaqcıl təcrübələr öyrənilməlidir. Bu baxımdan, "Microsoft" şirkəti ən uğurlu seçimlərdən biridir".

İ.Orucovun qeyd etdiyinə görə, "Microsoft" şirkəti ilə distant təhsilin inkişaf etdirilməsi ilə bağlı işlərin görülməsi Azərbaycanın həm indiki, həm də postpandemiya dövründə təhsil sektorunun inkişafına gətirib çıxaracaq. Müsahibimizin sözlərinə görə, pandemiyanın nə zaman bitəcəyini bilmirik və bütövlükdə, sentyabrın 15-nə - yeni tədris ilinə hazırlaşarkən belə biz bütün detallar üzrə hazırlığımızı davam etdirməliyik. "Yəni pandemiya bitsə, ənənəvi dərslər davam etdiriləcək, əks təqdirdə isə məktəblərimizi, təhsil alanlarımızı və təhsil verənlərimizi yeni situasiyaya hazırlamalıyıq. Yenə qeyd etmək istəyirəm ki, bütün bunlar versiyalardır və biz bilmirik ki, sentyabrın 15-də məktəblər açıla bilər, yaxud bilməz. Bunu heç kim deyə bilməz. Amma, bütün hallarda, qabaqlayıcı tədbirlərin görülməsi vacibdir. Artıq sözügedən görüşdən də məlum oldu ki, Azərbaycan dövləti bu istiqamətdə nə mümkündürsə edəcək. Məqsəd odur ki, Azərbaycan insanları təhlükədən sovuşa bilsinlər, pandemiyadan az itkilərlə çıxsınlar, həmçinin də təhsilimiz geridə qalmasın, təhsil alan balalarımız bu proseslərdən itkisiz çıxa bilsinlər.

Əlbəttə ki, təkcə pandemiya dövrü ilə əlaqədar deyil, həm də postpandemiya dönəminin, müasir dövrün çağırışlarına cavab vermək istiqamətində ölkənin siyasəti var və çox doğru siyasətdir. Ona görə də mən ölkə başçısının sözügedən videokonfransdakı çıxışına çox böyük önəm verirəm. Ölkəmizin bu istiqamətdə görməyə başladığı işlərin böyük əhəmiyyətini qeyd etmək istəyirəm. Fikirləşirəm ki, bütün bunlar Azərbaycan vətəndaşı, Azərbaycan təhsili, dövlətin inkişafı naminədir" - deyə İ.Orucov vurğuladı.

***İradə SARIYEVA***

№ 96 (4227) ■ Qiyməti: 40 qəpik

BAKI XƏBƏR

18 İYUN 2020-ci il

www.baki-xeber.com

# İlan sarılmış piyalə emblemi necə yaranıb?



**Tibb elminin emblemi piyaləyə sarılmış ilan hesab edilir. Onun nə vaxtdan və nə üçün emblem kimi qəbul edildiyi tarixçəsi maraqlıdır.**

AZƏRTAC tibbi mənbələrə istinadla xəbər verir ki, simvolun tarixi eramızdan əvvəl 800-600-cü illərə gedib çıxır. Qədim yunan rəvayətinə görə, işıq allahı Appollonun oğlu olan Eskulap kentavr Xironun yanında həkimlik sənətinə yiyələnmiş və hətta ölü diriltdən bacarıqlı həkim kimi tanınıb. Səma allahı Zevs Eskulapın bütün insanları ölümsüzlüyə qovuşdurmasından qorxaraq onu ildırımla vurub öldürüb. O vaxtdan Eskulap həkimliyin rəmzi hesab edilir. Əvvəllər ilanlar və piyalə ayrı-ayrı təsəvvür edilirdi. Bunlar, əslində, Eskulapın böyük qızı olan sağlamlıq ilahəsi Gigeyanın atributlarıdır. O, bir əlində ilan, digərində isə piyalə ilə təsvir edilib. Qızın qoluna sarılmış ilan onun qanı ilə qidalanır, lakin indiyədək də onun anlamı mübahisəlidir. Piyalədə müalicəvi xüsusiyyətlərə malik zəhər var, ilan isə həm müdriklik və biliyi, həm ölümsüzlük və xeyirxahlığı, həm də sağlamlıq və ehtiyatlılığı əks etdirir. İlan rəsmi müxtəlif ölkələrdə fərqli mənalar ifadə edib. Tək təsvir olunmuş ilan heç bir müsbət məna kəsb etmir, tək piyalə, badə rəsmi isə ölüm rəmzi hesab olunur. Lakin iki rəsm bir yerdə olduqda başqa məna verir, ilan insanların şəfası üçün sarıldığı piyaləyə zəhərini axıdır. Asiya və Afrika ölkələrində ilan həmişə müdriklik rəmzi sayılıb, çünki onlar ilanı əhliləşdirərək ondan müalicəvi təsirə malik zəhər əldə ediblər. İlan zəhəri isə təbabətdə qiymətli dərman kimi istifadə olunur.

## Sağlamlığın izlənməsi üçün innovativ parça hazırlanıb

**Müasir daşınan cihazlar ürək ritmini, tənəffüsün tezliyini və başqa göstəriciləri qeydə ala bilir. Bu isə insana öz orqanizminin vəziyyətini izləməyə imkan verir.**

Müxtəlif sensorların birbaşa parçaya inteqrasiyası növbəti mərhələ olacaq ki, bu da daşınan elektronikanın imkanlarını xeyli genişləndirməyə imkan verəcək. "Ted.az" bildirir ki, Lozanna Federal Politexnik Məktəbi ilə Foton materialları və Lifli cihazlar Laboratoriyasının tədqiqatçıları adi parçaya quraşdırıla bilən elektron lif yaratmaqla kiçik bir texnoloji nailiyyət əldə ediblər. Yeni texnologiya parçanın liflərinə inteqrasiya edilmiş elastik sensorlardan ibarətdir. Tədqiqatçıların sözlərinə görə, bu, "ağıllı" parça dünyasına qapı açır. Gələcəkdə pasiyentin sağlamlığına böyükölçülü qurğu deyil, adi geyim nəzarət edəcək. Tədqiqatçıların sözlərinə görə, əsas problem yumşaq materiallardan qurulmuş elektrik şəbəkəsi yaratmaqdır.

## Alimlər Kleopatranın məzarının tapıldığını iddia edirlər

**Əfsanəvi Misir kraliçası Kleopatranın məzarının Misirin Nil çayının deltasında olduğu barədə yeni dəlillər irəli sürülüb.**

AZƏRTAC xəbər verir ki, alimlərin bu iddiası iyunun 21-də "Science Channel" televiziyasında yayımlanacaq Kleopatra ilə bağlı filmdə təqdim ediləcək. Arxeoloji ekspedisiyanın üzvü Ketlin Martinez filmin anonsunda Kleopatranın İsgəndəriyyə yaxınlığındakı qədim Əbu Sir şəhərinin ətrafında dəfn edildiyini deyib. Qeyd edib ki, arxeoloqlar bundan əvvəl Taposiris Maqna məbədində qazıntılar aparıblar. Onlar güman edirlər ki, tapıntılar sərdabənin məhz burada olduğuna işarət edir. Əbu Sir Kleopatranın hakimiyyəti dövründə ən məşhur sahilyanı şəhər olub. Lakin Tanta Universitetinin yunan-Roma arxeologiyası üzrə professoru Səlva Hüseyn bildirib ki, beynəlxalq arxeoloji qrupun iddiaları əsaslı sübutlara söykənmir. Onun sözlərinə görə, sözügedən ərazidə olan sərdabələr də Kleopatranın hakimiyyət dövrünə aid deyil. Qədim Misirin sonuncu kraliçası olmuş Kleopatra Roma imperatoru Yuli Sezara ərə getdikdən sonra daha da məşhurlaşıb. O, Y.Sezarın sui-qəsd nəticəsində öldürülməsindən sonra hakimiyyət uğrunda Oktavian Avqust ilə mübarizə aparan Mark Antonini dəstəkləyib. Lakin e.ə. 31-ci ildə Aksi döyüşündə Kleopatranın və Mark Antoninin birləşmiş qüvvələri Oktavian Avqustun ordusu tərəfindən darmadağın edilib. Kleopatra Oktavianın əsgərlərinə əsir düşməmək üçün e.ə. 30-cu ildə Mark Antonidən bir neçə gün sonra intihar edib.



## "CNC.AZ" abunəçilərinin nəzərinə!

**"CNC.AZ" MMC internet xidmətinin göstərilməsi haqqında bağlanmış müqavilə üzrə göstərdiyi xidmətləri təkmilləşdirmək, gələcəkdə geniş çeşidli və daha keyfiyyətli xidmətlər təqdim etmək məqsədilə telekommunikasiya xidmətləri sahəsində daha yeni nəsil şəbəkəyə və texniki infrastruktura malik olan "CityNet" ticarət nişanı ilə tanınan "Uninet" MMC ilə birgə əməkdaşlığa qərar verib.**

Bu dəyişiklik tarif paketlərinə və xidmətin göstərilməsi qaydalarına təsir etməyəcək və hazırkı bildirişin tarixindən sonra 10 təqvim günü müddətində etirazınız daxil olmadığı təqdirdə tərəfimizdən göstərilən internet xidməti eyni şərtlərlə və qiymətlərlə təqdim ediləcək. Xidmətin dəyərinin ödənilməsi zamanı "CNC.AZ" və ya "Uninet" loqosunu seçməyinizi xahiş edirik.

## Elan

Nuriyev Nurəli Əbdülhəsən oğlunun adına Əfqanıstan müharibəsi veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.




**Qoç** - Gün çətin və qarışıq olsa da, ümidsiz dərəcədə pis deyil. Təmkinli davranıb neqativ emosiyaların təsiri altına düşməsəniz, uğur əldə etmək və planları reallaşdırmaq imkanları var.


**Buğa** - Uğurlu gündür. Yaşam potensialı yüksəkdir. Enerjili və qüvvəli olduğunuzu hiss edirsiniz. Yeni işlərə başlamaq olar. Çətin və qarışıq problemin öhdəsindən nisbətən asan gələcəksiniz.


**Əkizlər** - Ehtiyatlı və sayıq olun. Sadə, rəvan gün deyil. Kobud səhvə yol verməyin, çünki belə yanlışlığın fəsadlarının aradan qaldırılması çox vaxt aparacaq. Yaxın ətrafınızdakı insanlarla davranışın modelini müəyyənləşdirin.


**Xərçəng** - Məhsuldar çalışın, vaxtınızı mənasız işlərə sərf etməyin. Mühüm məsələlərin çözümünü ertələməyin, təxirə salmayın. Nəzərdə tutduğunuzdan da çox iş görməyə, həllini tələb edən problemi çözməyə çalışın.


**Şir** - Gün uğurlu olmasa da, bir sıra məqamlar baxımından əlverişlidir. Son vaxtlar sizi narahat edən problemi həll etmək imkanları var. Adət etdiyiniz kimi davranmayın, müşküllərin çözümü üçün yeni yollar arayın.


**Qız** - Gün yaxşı başlamayacaq. Kiçik çətinliklər, xoşagəlməz situasiyalar, yaxınlarla fikir ayrılıqları sizi təbdən çıxara bilər. Ruhdan düşməyin. Sadəcə, dürüst davranış modeli seçin, yaşanan vəziyyəti təhlil edin.


**Tərəzi** - Uğurlu gündür. Müsbət təmayüllərin təsiri güclü və universaldır. Başladığınız işlərdə irəliləyişlərə nail olmaq şanslarınız var. Yaşamınızın bir sıra sahələrində müsbət dəyişikliklərin ərəfəsidir.


**Əqrəb** - Maraqlı gündür. Son vaxtlar darıxdığınız insanlardan xoş xəbərlər alacaqsınız. Qəfil işgüzar təkliflə qarşılaşa bilərsiniz. Yaxşı gəlir əldə etmək şansı var. Peşəkar fəaliyyətlə bağlı məsələlərin qeyri-formal şəraitdə müzakirəsi üçün pis vaxt deyil.


**Oxatan** - Ən yaxşı məziyyətlərinizi nümayiş etdirmək imkanlarınız var. Üstün cəhətlərinizi, bilik və bacarıqlarınız diqqətsiz qalmayacaq. Rəğbət bəslədiyiniz insanın diqqətini cəlb edə bilərsiniz.


**Oğlaq** - Səhər saatları pis başlanmayacaq. Yeni işlər, müxtəlif eksperimentlər, maraqlı ideyaların axtarışı üçün pis zaman deyil. Tərəfdaşlıq etmək istədiyiniz insanlarla görüş üçün münasib vaxtdır.


**Dolça** - Müəyyən çətinliklərə rəğmən uğurlu gündür. Çalışın, tənbəllik etməyin. Yaxın ətrafınızdakı insanlarla normal münasibətləri qorumaq üçün səylər göstərin. Fikir ayrılıqları və ixtilaflar yaranarsa, onları konstruktiv dialoqla çözmək olar.


**Balıqlar** - İşlər çoxdur. Vurnuxma və tələskənliyə yol verməyin. Bütün işləri görməyin mümkünsüz olduğunu düşünüb ruhdan düşməyin. Təkbaşına görə bilmədiyiniz işi başqa vurmaq üçün yardımcı aramaq olar.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Marsda qeyri-adi hadisə - Yaşıl işıq nədir?

**Avropa Kosmos Agentliyinin (ESA) "Trace" qaz peyki Marsın atmosferində zümrüd yaşılı bir parıltının yayıldığını təsbit edib.**

"Milli.Az" xəbər verir ki, peykin tapıntısını qeydə alan Belçikanın "Liege" universitetinin astronomu Jan-Klod Jerar bildirib ki, dünyanın qaranlıqda qalan qismində atmosferdə görünən, oksigen atomlarının müəyyən bir işıq dalğası boyu yayılmasından qaynaqlandığı hesab edilən yaşıl işıq Yer kürəsindən başqa yerdə ilk dəfə müşahidə edilib. Alim deyib: "Yaşıl işıq yayılması oksigen molekullarının xarakterik xüsusiyyətidir. "Şimal işıqları" adlanan auroralar Günəşdən yayılan elektrik yüklü zərrəciklərin atmosferin üst seqmentlərindəki molekullarla çarpması nəticəsində meydana gəlir. Hesab edirik ki, bu, Marsdakı işıq planetin atmosferinin 95 faizini əmələ gətirən karbon 4 oksid qazlarının atmosferin üst seqmentlərində parçalanması, karbonmonoksit və oksigenə ayrılması nəticəsində yaranır".

*Hazırladı: Namiq QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.